RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 94 (8410) CÜMƏ, 15 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin qlobal böhran şəraitində inkişaf modeli

## Ən islahatçı Prezident pandemiya ilə mübarizə dövründə də mühüm sosial-iqtisadi layihələrini reallığa çevirir

Bəşəriyyəti çətin sınaq qarşısında qoyan koronavirus bəlası yalnız sağlığa təhdid deyil, makroiqtisadi siyasətdən tutmuş qlobal ticarətədək bütün sahələrə mənfi təsirini göstərməklə həm də sosial-iqtisadi problem olduğunu göstərir. Beş aydır dünya dövlətləri qlobal pandemiya ilə mübarizə aparırlar. Pandemiyanın yaratdığı iqtisadi şoklar fonunda bu il dünya iqtisadiyyatının 4 faiz azalacağı qeyd edilir.

Bununla belə Avropa Yenidənqurma və İnkişaf Bankının regional iqtisadi perspektivlərə dair hesabatında bildirilir ki, gələn il Azərbaycan iqtisadiyyatı 3 faiz artacaq. Ekspertlər vergi güzəştləri və məşğulluğa dəstək tədbirlərinin iqtisadi artım üçün şərait yaradacağını bildirirlər.

### Pandemiya dövründə 9 yeni obyektin açılışı

Hazırda dünya böhran şəraitindədir. Pandemiyanın vurduğu zərərlərdən az itki ilə çıxmaq və makroiqtisadi sabitliyi qorumaq üçün Azərbaycan hökuməti effektiv qabaqlayıcı tədbirlər həyata keçirir. Məqsəd həm də iqtisadiyyata dəyən zərəri minimuma endirməkdir. Məhz pandemiya dövründə ölkədə heç bir sosial layihənin təxirə salınmaması və qeyri-neft sənayesinin inkişafı da bunu təsdiqləyən reallıqdır.

Son 3 ayda, pandemiya dövründə ölkədə yaradılan müəssisələr, yenilənən yol infrastrukturu, açılan yeni obyektlər və reallaşan sosial layihələrə nəzər yetirsək, buna şahidlik edərək:

- Bakıda "Yeni klinika" tibb müəssisəsi;
- "Bakı Tekstil Fabriki" tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi;
- Bakıda modul tipli ilk xəstəxana kompleksi;
- "Gilan Tekstil Park"ın tibbi maska fabriki, qoruyucu kombinezonların istehsalı müəssisəsi;
- MİDA-nın ikinci layihəsi olan Hövsan yaşayış kompleksi;
- "Azərenerji"nin Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksi;
- Xızıdan Sumqayıt şəhərinə magistral qaz kəmərinin çəkilməsi;
- Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində piyada keçidi;

Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidən qurulması.

### Müstəqillik tarixində ən böyük iqtisadi-sosial paket

Dövlət başçısı bu layihələrin hər birinin açılış mərasimində iştirak edərək öz xeyir-duasını da verir. Yəni bütün bunlar pandemiya dövründə cənab İlham Əliyevin təşəbbüsü ilə irəli sürülərək reallığa çevrilən sosial-iqtisadi layihələrdir. Həqiqətən də, qlobal böhran dövründə bu cür layihələrin reallaşdırılması Azərbaycanın iqtisadi qüdrətindən xəbər verir. Bu uğurları şərtləndirən amillər isə, əlbəttə ki, Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların nəticələridir.

Hər bir ölkədə pandemiya səbəbindən elan edilən karantin rejiminə görə əhalinin sosial durumu ilə bağlı müxtəlif proqramlar tətbiq edilib. Azərbaycanda isə Prezident İlham Əliyevin böyük iqtisadi-sosial paketi çərçivəsində dövlət dəstəyi proqramları qəbul edilib. İşləməyən vətəndaşın maaşını dövlət ödəyir, sahibkarlara və muzdla işləyənlərə yardımlar, güzəştlər göstərilir, bir sözlə, əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılır. Artıq pandemiya nəticəsində zərərə məruz qalmış sahibkarlara 100 milyon manata yaxın maliyyə dəstəyi göstərilib.

Qeyd edək ki, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərə və fərdi (mikro) sahibkarlara Azərbaycan Prezidentinin sərəncamı ilə ayrılan vəsait hesabına maliyyə dəstəyinin ödənilməsi tapşırılıb.

Ardı 4-cü səh.

## Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına Amerika xalqı adından səmimi salamlarımı və təbriklərimi çatdırıram. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir.

Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik.

Xahiş edirəm 28 May - Respublika Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz.

*Səmimiyyətlə,*

***Donald C.TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## T.Q.Piriyevin Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Tural Qüdrət oğlu Piriyev Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2020-ci il*

Azərbaycanın pandemiyaya qarşı mübarizə istiqamətində gördüyü tədbirlər beynəlxalq aləmdə yüksək qiymətləndirilir. O cümlədən Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı COVID-19-la bağlı həyata keçirdiyi mühüm işlərə görə nümunəvi ölkə adlandırıb. Bu, həqiqətən belədir. Azərbaycan, ilk növbədə, ölkə daxilində bütün lazımi tədbirləri görür və eyni zamanda beynəlxalq müstəvidə öz sözünü deyir.



## Azərbaycanda dövlət vətəndaşlarının, insanlar da bir-birinin dayağıdır

Ölkəmiz pandemiyaya qarşı qlobal mübarizə məqsədilə Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar donor ianəsi verib. Daha sonra Qoşulmama Hərəkatının sədri kimi həmin təşkilata əlavə 5 milyon dollar da ianə edib ki, bizimlə razılaşdırmaqla Hərəkata üzv ölkələrə yardım göstərilsin. Prezident İlham Əliyevin təşəbbüs ilə iki Zirvə görüşü keçirilib. Bu, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşüdür ki, həmin təsisatların hər ikisində Azərbaycan hazırda sədrdir. Dövlət başçısının bu tədbirləri keçirmək təşəbbüsünü bütün dünya birliyi alqışlayıb.

Ardı 4-cü səh.

## Paşinyan ailəsinin faşizmlə birbaşa əlaqəsi ifşa olundu

### Ermənistanda nasizm dövlət siyasətinə çevrilib

Azərbaycanlılara qarşı soyqırımı ideologiyasına sadiq qalan və bu xüsusda neçə qanlı cinayətə əl atan Ermənistanda faşizmin çiçəklənməsini indi heç kim təəccüblə qarşılamır. O da təəccüb doğurmur ki, faşizm yolunda fəaliyyəti heç kimə sirr olmayan Qaregin Njde Ermənistanda qəhrəmana çevrilib. Ermənistan parlamentinin spikeri Ararat Mirzoyan İkinci Dünya müharibəsində qələbənin növbəti ildönümü ilə bağlı bildirir ki, Nikol Paşinyan rejimi üçün Qaregin Njde qəhrəmandır.

Elə Nikol Paşinyan özü də çıxışlarında dəfələrlə Njdeni tərifləyib. İndi də məlum olur ki, baş nazirin babası 1943-cü ildə nasist Almaniyası sıralarında, daha dəqiq desək, SS-in legionunda Qaregin Njde ilə çiyin-çiyinə döyüşüb. Bu mənada Paşinyanın faşizm sevgisi təsadüf sayılmır.

Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra nasist Njdeyə Yerevanda ucaldılmış abidəni nəinki götürtmək niyyətində deyil, əksinə onun təbliğatını genişləndirir. Bu, Ermənistanın faşizm ideologiyasına xidmət etməsini bir daha sübut edir. Görünən budur ki, Ermənistanda faşistlərin ideallaşdırılması həyati norma kimi qəbul edilir.

Ardı 7-ci səh.

Dünyanı növbəti sınağa çəkən koronavirus pandemiyası insanlığa təkcə xəstəlik kimi ziyan vurmadı, eyni zamanda, dünyada formalaşan iqtisadi nizama da ağır zərbə endirdi. Nüfuzlu beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, bu xəstəlik səbəbindən dünya iqtisadiyyatı 8-9 trilyon dollar ziyan çəkəcək. Bu fəsadı aradan qaldırmaq üçün isə ən azı iki-üç il vaxt lazım olacaq.




## Uzaqgörən siyasət, uğurlu nəticə

Hazırkı dövlətlərarası münasibətlərə nəzər yetirdikdə görürük ki, heç kəs bu bəlaya qarşı ümumi qaydada mübarizə aparmaq istəmir. Hər bir ölkə öz şəxsi maraqlarını önə çəkir, ona görə ki, bu böhrandan uğurlu şəkildə çıxan dövlətlər beynəlxalq aləmdə yenidən söz sahibi olacaqlar.

Yaranmış vəziyyətdən çıxmaq üçün dünyanın əksər ölkələri borc götürməyə üstünlük verirlər. Çünki onların iqtisadi böhrandan çıxmaq üçün kifayət qədər ehtiyat valyutası yoxdur. Bu üzdən onlar Dünya Bankına və Beynəlxalq Valyuta Fonduna üz tuturlar. Bu isə həmin dövlətlərin iqtisadi və siyasi cəhətdən hər iki qurumdan asılılığını artıracaq. Prezident İlham Əliyev bu məsələyə münasibət bildirərək söyləmişdir ki, Azərbaycan dünyada həmin qurumlara müraciət etməyən azsaylı ölkələrdəndir. Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişafı, neft gəlirlərindən düzgün istifadə edilməsi sayəsində bu gün 52 milyard dollardan çox valyuta ehtiyatı yaranıb.

Ardı 5-ci səh.

▪ Özünü, doğmalarını və dostlarını qorumaq:
▪ Koronavirusa qalib gəlmək üçün
EVDƏ QAL! Biz birlikdə güclüyük!

# Azərbaycan Tibb Universitetinin 90 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ildə respublikanın ilk ali tibb təhsili ocağının - Azərbaycan Tibb Universitetinin təsis edilməsinin 90 illiyi tamam olur.

Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazasında yaradılmış Azərbaycan Tibb Universiteti ölkəmizin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Azərbaycan səhiyyəsinin inkişafı tarixində xüsusi mövqeyə malik universitet öz fəaliyyətində təhsili, elmi və tibbi daim üzvi şəkildə birləşdirmiş, ötən illər ərzində təbabətin ən müxtəlif sahələri üçün yüksək bilikli və bacarıqlı kadrların yetişməsində, həmçinin mötəbər elmi mərkəz kimi fundamental tədqiqatların aparılmasında əhəmiyyətli rol oynamışdır. Tibb Universitetində beynəlxalq əməkdaşlıq əlaqələrinin davamlı genişləndirilməsi və tibb təhsilinin müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl həyata keçirilən işlər təqdirəlayiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və ölkədə tibb elmi və təhsili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan Tibb Universitetinin 90 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Azərbaycan Tibb Universitetinin 90 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2020-ci il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610; 2009, № 10, maddə 779; 2016, № 4, maddə 661, № 6, maddə 1064, № 11, maddə 1840; 2017, № 6, maddə 1083; 2018, № 12 (I kitab), maddə 2600; 2019, № 5, maddə 838, № 8, maddə 1408) 2.2-3-cü bəndinə "Bakı Nəqliyyat Agentliyi" sözlərindən sonra ", Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında 2020-ci ilin may ayında vətəndaşların videoqəbulu cədvəli

| Qəbulu olan şəxs | Qəbul günləri |
|---|---|
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri** Əliyev Şahin Məhərrəm oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 29 |
| * * * | |
| **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezidentin İşlər müdiri** Şahbazov Oqtay Qəşəm oğlu | 19 |

**QEYD:**

Vətəndaşların qəbulu videoqəbul formatında keçirilir.

Prezident Administrasiyasının videoqəbulu üçün yerli icra hakimiyyəti orqanlarının Vətəndaşların qəbulu otaqlarında müvafiq texniki imkanlar yaradılmışdır.

**Qəbula yazılma vaxtı:** bütün iş günləri saat 9:00-dan 13:00-dək.

**Qəbula yazılmaq üçün əlaqə vasitələri:**

**www.president.az** saytının "Qəbula yazılmaq" bölməsi

**Telefonlar:** 492-22-30; 492-15-01; 492-44-97.

**WhatsApp və Skype əlaqəsi üçün:** (050) 410-11-22; (055) 510-11-22; (077) 510-11-22.

**Qəbul saat 14:00-dan başlayır.**

# Qusar rayonunda həyətyanı sahələrin və əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qusar rayonunun Zuxul kəndində həyətyanı sahələrin və əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.21-ci yarımbəndində göstərilmiş məbləğin 652 000,0 (altı yüz əlli iki min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2005-ci il 23 mart tarixli 213 nömrəli, "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2006-cı il 23 fevral tarixli 372 nömrəli, "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" 2011-ci il 21 dekabr tarixli 548 nömrəli, "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" 2012-ci il 13 iyul tarixli 681 nömrəli, "Alternativ və bərpa olunan enerji sahəsində əlavə tədbirlər haqqında" 2013-cü il 1 fevral tarixli 810 nömrəli, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2016-cı il 11 aprel tarixli 858 nömrəli və "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 23 mart tarixli 213 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 171; 2016, № 2 (II kitab), maddə 267) 1-1.2.3-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

2. "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli 372 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 89; 2016, № 2 (II kitab), maddə 266, № 6, maddə 1048) 2-1.2.3-cü yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

3. "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1124; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2019, № 5, maddə 817) 5.1.6-cı yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 681 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 690; 2019, № 5, maddə 817) 5.1.6-cı yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

5. "Alternativ və bərpa olunan enerji sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 fevral tarixli 810 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 104, № 10, maddə 1159; 2014, № 10, maddə 1205) 8.1.6-cı yarımbəndində "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 663, № 11, maddə 1820; 2017, № 5, maddə 820, № 9, maddə 1656; 2018, № 2, maddə 183; 2019, № 3, maddə 411, № 5, maddə 817) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8.1.7-ci yarımbənddə "mühasibat balanslarının, mənfəət və zərər hesablarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi" üzrə:

6.2.1. 6.2.8-ci yarımbənddə "mühasibat balanslarını, mənfəət və zərər hesablarını" sözləri "maliyyə hesabatlarını" sözləri ilə əvəz edilsin;

6.2.2. 10.3-cü bənddə "hesabatını" sözü "hesabatlarını" sözü ilə əvəz edilsin və həmin bəndə "mətbu orqanda" sözlərindən əvvəl "internet səhifəsində və ya" sözləri əlavə edilsin;

6.2.3. 10.4-cü bənddə "hesabatına" sözü "hesabatlarına" sözü ilə və "maliyyə-təsərrüfat fəaliyyəti barədə ümumi hesabatı, maliyyə hesabatlarını (mühasibat balansı, mənfəət və zərər hesabları, kapitalda dəyişikliklər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti haqqında hesabat, uçot siyasəti və izahlı qeydlər)" sözləri "illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2272; 2018, № 6, maddə 1201) ilə təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 5.4.12-ci yarımbənddə "mühasibat balanslarının, mənfəət və zərər hesabatlarının" sözləri "maliyyə hesabatlarının" sözləri ilə əvəz edilsin;

7.2. 6.4.13-cü yarımbənddə "mühasibat balansını" sözləri "illik maliyyə hesabatlarını" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2020-ci il*

# Hikmət HACIYEV: "Danışıqlar prosesində irəliləyişin olmaması Ermənistanın qeyri-konstruktiv fəaliyyəti ilə əlaqədardır"

"Ermənistan öz aqressiv ritorikası ilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə fəaliyyətinə zərbə vurur".



AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "EurActiv" portalına müsahibəsində bildirib.

Danışıqlarda irəliləyiş üçün Yerevanın konstruktiv fəaliyyətinin olmamasından təəssüfləndiyini bildirən Hikmət Hacıyev deyib ki, Ermənistan danışıqlar prosesindən geri çəkilir.

Prezidentin köməkçisi vurğulayıb ki, münaqişənin yeganə həlli yolu Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, Ermənistan qoşunlarının həmin ərazilərdən çıxarılması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasından başlayaraq mərhələli nizamlanmadır. O qeyd edib ki, Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkilər" bir daha göstərdi ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejim cinayətkar birləşmədən, Ermənistanın siyasi rəhbərliyinin mafioz klanının tərkib hissəsindən başqa bir şey deyil. İşğal olunmuş Dağlıq Qarabağda gümüş mədənlərinin istismarı və qiymətli metalların qanunsuz ixracı artıq ənənəyə çevrilib. Bu sahədən qazanılan gəlir Ermənistanın siyasi rəhbərliyinin gizli fəaliyyətinin maliyyələşdirilməsi üçün istifadə olunur.

Prezidentin köməkçisi müsahibəsində Azərbaycanda koronavirusla mübarizə istiqamətində görülən işlərdən də danışıb. O, Azərbaycan hökumətinin gördüyü qabaqlayıcı tədbirlərin səmərəli nəticələr verdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ölkədə epidemioloji vəziyyət nəzarət altındadır. Azərbaycanda testlərin aparılması üçün 24 laboratoriya fəaliyyət göstərir və gündəlik 7 minə yaxın test icra olunur. Səhiyyə sisteminin hazırlığının gücləndirilməsi üçün tədbirlər görülüb, xəstəxana çarpayılarının sayı artırılıb, tibbi heyət təlimə cəlb olunub.

COVID-19-un yaratdığı sosial-iqtisadi çətinliklərlə bağlı sualı cavablandıran Prezidentin köməkçisi zərərlərin qarşısının alınması üçün sosial-iqtisadi paket həyata keçirildiyini və bu məqsədlə 3 milyard manatdan çox vəsait ayrıldığını vurğulayıb. Hikmət Hacıyev Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssislərinin Azərbaycana dəvət edildiklərini, onların ölkədə vəziyyətlə tanış olaraq görülmüş işləri müsbət qiymətləndirdiklərini də qeyd edib. O, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom gebreyesusun Prezident İlham Əliyevə göndərdiyi məktubda Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirləri nümunəvi adlandırdığını diqqətə çatdırıb.

Hikmət Hacıyev bildirib ki, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, koronavirusla mübarizədə özünəqapanma deyil, qlobal həmrəylik səmərəlidir. Bu baxımdan o, Azərbaycanın hazırda sədrlik etdiyi Türk Şurasının və Qoşulmama Hərəkatının bu yaxınlarda keçirilmiş Zirvə görüşlərini xatırladıb.

# Milli Məclisin Regional məsələlər komitəsinin növbəti onlayn iclası keçirilib

Mayın 14-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti onlayn iclası keçirilib. Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, komitənin sədri Siyavuş Novruzov iclası açaraq gündəlikdəki məsələlər barədə məlumat verib.

Komitə sədri qeyd edib ki, deputatlara təqdim olunmuş "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" və "Bələdiyyələrin su təsərrüfatı haqqında" qanunlara dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılır.

Layihə barədə danışan Siyavuş Novruzov adları çəkilən sənədlərə təklif olunan redaktə xarakterli düzəlişlər barədə məlumat verib. Qeyd edilib ki, düzəlişlərə əsasən, ətraf mühitə təsirin qiymətləndirilməsi məsələlərinə diqqət daha da artırılır.

Onlayn iclasda iştirak edən komitənin sədr müavini Elşən Musayev, komitə üzvləri Nizami Cəfərov, Kamran Bayramov, Malik Həsənov, Fəttah Heydərov, Cavid Osmanov, Tahir Rzayev, Səbinə Xasayeva, Məzahir Əfəndiyev, Səttar Möhbalıyev, Aqil Məmmədov, Emin Hacıyev, Əliabbas Salahzadə layihə barədə fikirlərini bildirərək dəyişiklikləri məqsədəuyğun hesab ediblər.

Müzakirələrin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub. Sonra onlayn iclasda cari işlərdən danışılıb, Regional məsələlər komitəsinin növbəti dövr üçün fəaliyyəti müzakirə edilib.

Siyavuş Novruzov çıxışında bildirib ki, koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizədə respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük işlər görülür. Bütün resurslar səfərbər edilib. Prezidentin Ehtiyat Fondundan tibbi avadanlıqların, ləvazimatların alınması üçün təxminən 100 milyon manat vəsait ayrılıb və əlavə olaraq 150 milyon manat ehtiyatda saxlanılır, vətəndaşlara sosial dəstək göstərilir.

İclasda çıxış edən komitə üzvləri koronavirus pandemiyası ilə əlaqədar dövlət və Heydər Əliyev Fondu tərəfindən görülən işləri, həyata keçirilən sosial tədbirləri yüksək qiymətləndiriblər.

# Səməd SEYİDOV: "Aİ Şurasının 11 may tarixli qərarı Avropadan Ermənistana növbəti zərbədir"

Mayın 11-də Avropa İttifaqı (Aİ) Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı (ŞT) siyasəti ilə bağlı yekun qərarı dərc edilib.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, hazırda dünyada baş verən və bir çox ölkələrin siyasi, iqtisadi nüfuzunu sarsıdan pandemiyanın informasiya gündəmini zəbt etməsi səbəbindən bəzi məsələlərə yetərincə diqqət yetirilmir. Lakin mayın 11-də Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı yekun qərarı diqqətdən kənarda qalan məsələlər sırasında deyil. Belə ki, bu qərar çox ciddi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Ermənistana, eləcə də onun destruktiv siyasətinə Aİ tərəfindən güclü bir zərbə kimi qiymətləndirilməlidir. Söhbət Şərq Tərəfdaşlığı proqramı çərçivəsində ölkələrlə Avropa İttifaqının münasibətlərinin tənzimlənməsi və gələcəkdə ŞT üzv dövlətlərinin növbəti Zirvə görüşündə qəbul olunacaq sənədlərə dair tövsiyələrdən gedir.

Komitə sədri deyib: "Biz, Azərbaycan olaraq həmişə beynəlxalq təşkilatlarla münasibətlərdə qanunun aliliyinə, beynəlxalq qanunun, bu istiqamətdə Helsinki Yekun Aktının beynəlxalq sənədlərdə tətbiq olunmasına tərəfdar çıxmışıq. Azərbaycan olaraq heç bir siyasi konyekturadan asılı olmayaraq vahid yanaşma və ümumi beynəlxalq qanuna söykənən prinsiplərin mövcudluğunun əhəmiyyəti haqqında dəfələrlə çıxış etmişik və edirik. Məhz bu mövqe, bu yanaşma Aİ Şurasının 11 may tarixli qərarının 2-ci bəndində ŞT-nin siyasi və hüquqi əsasları, o cümlədən ən vacib fəaliyyət prinsiplərində əks olunur. Şura Avropa Qonşuluq Siyasətinin spesifik regional "ölçüsü" olan ŞT-nin strateji əhəmiyyətini bir daha vurğulayaraq, vahid demokratiya, rifah və sabitliyin ümumi məkanının qurulması ilə bağlı birgə öhdəliyi yenidən təsdiq edərək ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara söykənən Aİ ŞT-nin əsas prinsiplərini təsdiq edir. Bu, sadəcə, sözlər deyil, bu, Aİ-nın Şərq Tərəfdaşlığı proqramında olan ölkələrlə münasibətlilərin tənzimlənmə prinsipləridir. Bu prinsiplər bu şəkildə təqdim edilirsə, bu, Azərbaycanın maraqlarına tam uyğundur, ermənilərə isə növbəti zərbədir".

Səməd Seyidov vurğulayıb ki, bu qərarda bir vacib məqama da diqqət yetirmək lazımdır. Paşinyan və onun ətrafında olan separatçılar uzun müddətdir ki, Qarabağ separatçılarının tərəf kimi danışıqlara cəlb olunmasına cəhd göstərirlər. Azərbaycan Prezidenti dəfələrlə bu siyasətin iç üzünü açaraq onun məntiqsizliyini dünya ictimaiyyətinə təqdim edib. Bu gün isə bu qərarla danışıqlar formatının razılaşdırılmış formada davam etdirilməsi Aİ tərəfindən bir daha təsdiq olunub. İndi özünüz qərar çıxarın, Aİ Şurası ali bir orqandır. Aİ hər hansı bir proqram, o cümlədən ŞT proqramına daxil olan ölkələrin ərazi bütövlüyünə müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Bu, ilk növbədə, o deməkdir ki, bütövlüyü pozulmuş, münaqişə nəticəsində işğal olunmuş ərazilərin məsələsi həmin prinsiplər həyata keçirilməklə razılaşdırılmış formatda öz həllini tapmalıdır. İkincisi, bu, Azərbaycanın xarici siyasətinin dövlət başçısının vurğuladığı məsələlərin bu beynəlxalq təşkilat tərəfindən dəstəklənməsi deməkdir. Nəhayət, Aİ Şərq Tərəfdaşlığının üzvü olan Azərbaycan ilə bütün sahələrdə geniş əlaqələr qurmaqda maraqlı olduğunu və bu əlaqələrin inkişaf etdirilməsinə səy göstərildiyini bəyan edib.

"Bir sözlə, ərazi bütövlüyünü tanıyan, razılaşdırılmış formatda danışıqları aparan Avropa İttifaqı ilə əlaqələrin təşkil olunması Aİ Şurasının sənədlərində də öz əksini tapıb. Bu, Ermənistanın yalan, böhtan əsasında aparılan destruktiv siyasətinə böyük zərbədir. Biz bu istiqamətdə səylərimizi davam etdirməli və Avropa təşkilatlarında, beynəlxalq qurumlarda Azərbaycanın milli maraqlarını ən yüksək səviyyədə müdafiə etməliyik", - deyə Milli Məclisin komitə sədri bildirib.

***AZƏRTAC***

Avropa Şurası vahid hüquqi məkana malik, iri regional, əhalisinin ümumi sayı 830 milyon nəfər olan 47 dövləti birləşdirən ümum-Avropa təşkilatına çevrilmişdir (28-i Avropa İttifaqının üzvüdür). Biz insan haqlarından, hüququn aliliyindən və demokratiyadan danışarkən cəmiyyətlərimizin əsaslarından danışırıq. Dünyada heç bir digər beynəlxalq təşkilat bu əsasları qorumaq üçün bu cür əhatəli mexanizmlərə və əməkdaşlıq formalarına malik deyildir. Son 70 il ərzində bütün avropalıların maraqlarına xidmət edən 200-dən çox hüquqi cəhətdən məcburi qüvvəyə malik beynəlxalq sənəd işlənib hazırlanmışdır. Bu sənədlər geniş sahələri əhatə edir və onlardan bəziləri məzmununa görə dünyada unikaldır.

# Məhkəmə sistemlərində süni intellektin tətbiqinin etik prinsipləri haqqında Avropa Xartiyası

Buna misal olaraq, Məlumatların mühafizəsi haqqında Konvensiyanı (54-dən çox ölkə ratifikasiya etmişdir) və Kibercinayətkarlıq haqqında Konvensiyanı (ABŞ, Avstraliya, Yaponiya daxil olmaqla 63-dən çox ölkə), habelə Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Konvensiyanı (İstanbul Konvensiyası), Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan qorunması haqqında Konvensiyanı (Lansarot Konvensiyası) göstərmək istərdim.

Əminliklə demək olar ki, Avropa Şurasının ən mühüm nailiyyətləri İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının qəbul edilməsi və Avropa İnsan Hüquqları Məhkəməsinin yaradılması, eləcə də 47 dövlətdə yaşayan avropalılar üçün vahid hüquqi məkanın, həmçinin ölüm cəzasından azad ümumi zonanın formalaşdırılmasıdır.

Avropa Məhkəməsinin təsisçiləri ona demokratiyanın diktaturaya çevrilməsinin təkrarlanmasından kollektiv sığorta kimi baxırdılar. Onların heç biri gələcəkdə Avropa Məhkəməsinin bu qədər iş yükünü heç təsəvvür belə edə bilməzdi - bu gün Məhkəmə ildə minlərlə qərar və icrası məcburi olan qətnamələr qəbul edərək, təxminən 830 milyon vətəndaşın hüququnu müdafiə edir. Məhkəmə Lissabondan Vladivostoka qədər bütün məkanda fərdi insan hüquqlarının təminatçısı olaraq qalır. Avropa Məhkəməsi öz mövcudluğu dövründə 800000-dən çox ərizəyə baxmışdır. Strasburq məhkəməsinin dövlətə qarşı qətnaməsi oxşar vəziyyətdə olan minlərlə insanın həyatına təsir göstərə bilər.

Avropa qitəsində və hətta onun hüdudlarından kənarda ədalət mühakiməsinin keyfiyyətinin yaxşılaşdırılmasından söhbət getdikdə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ), Venesiya Komissiyasının, Avropa Hakimlərinin Məşvərət Şurasının (CCJE) və Avropa Şurasının digər strukturlarının, eləcə də CEPEJ-də müşahidəçi statusuna malik olan hakimlərin Avropa və Beynəlxalq assosiasiyaları kimi regional təşkilatların mühüm işləri xüsusi qeyd edilməlidir.

Son illər CEPEJ Avropa məkanında ədalət mühakiməsi sahəsində qərarların işlənib hazırlanması və mübadiləsi üçün ekspert resursuna çevrilmişdir. CEPEJ üzv dövlətlərə onların məhkəmə sistemlərinin Avropa Şurasının standartlarına və normalarına uyğunlaşdırılması məqsədilə ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi yolu ilə birbaşa yardım göstərilməsi, həmçinin Avropa Məhkəməsinin həddən artıq iş həcminin azaldılması və məhkəmə təhqiqatı üzrə iş yükünün ötmilli səviyyədən milli səviyyəyə endirilməsi üçün yaradılmışdır. Komissiya həmçinin Avropa Şurasının ədalət mühakiməsinin səmərəliliyi və ədalətliliyinə dair beynəlxalq-hüquqi sənədlərinin, xüsusilə Avropa Konvensiyasının tələblərinin və ədalət mühakiməsi məsələləri üzrə Avropa Məhkəməsinin presedent hüququnun həyata keçirilməsinə kömək edir.

CEPEJ-nin əsas istiqamətləri aşağıdakı kimi təsnif edilə bilər: məhkəmə sistemlərinin qiymətləndirilməsi, ədalət mühakiməsinin keyfiyyəti, məhkəmə vaxtının idarə edilməsi, mediasiya və məhkəmə qərarlarının icrası.

CEPEJ direktiv orqanlar, fəaliyyətdə olan hakimlər və hüquqi cəmiyyətin nümayəndələri üçün nəzərdə tutulmuş konkret və tətbiq oluna bilən idarəetmə vasitələrini və rəhbər prinsipləri işləyib hazırlayır, həmçinin qabaqcıl təcrübəni müəyyənləşdirir və müxtəlif ədliyyə məsələləri üzrə elmi araşdırmalar aparır.

Son 15 il ərzində CEPEJ-nin struktur bölmələri ədalət mühakiməsinin keyfiyyətinin vacib məsələləri, məhkəmələrin işinin səmərəliliyinin qiymətləndirilməsi, məhkəmə təhqiqatının müddətləri, mediasiya və məhkəmə qərarlarının icrası ilə bağlı elmi tədqiqatlar üzrə 25-dən artıq material dərc etmişdir (məsələn, Avropada ədalət mühakiməsinə çıxış, məhkəmə qərarlarının keyfiyyəti, Avropa məhkəmə sistemlərinə rəhbərlik və onların idarə edilməsi, məhkəmə sistemlərinin monitorinqi və qiymətləndirilməsi, Avropa Məhkəməsinin məhkəmə təcrübəsinin təhlili əsasında məhkəmə işlərinin baxılma müddəti və s. məsələlər üzrə tədqiqatlar).

CEPEJ həmçinin Avropa Konvensiyasının əsas tələblərini nəzərə alaraq, üzv dövlətlər üçün onların ədalət mühakiməsi sistemlərinin təkmilləşdirilməsi üzrə xeyli sayda rəhbər qaydalar formalaşdırmışdır.

CEPEJ-nin ikiillik dövr ərzində məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı məruzələri hazırda Avropanın məhkəmə sistemləri haqqında informasiyanın yeganə əhatəli mənbəyi və Avropada məhkəmə-hüquq islahatlarının keçirilməsində oriyentirdir.

Qeyd etmək lazımdır ki, CEPEJ Avropa Şurası ilə Şərq əməkdaşlığı çərçivəsində strateji tərəfdaşlıq layihələrinin həyata keçirilməsində, həmçinin Albaniya, Bosniya və Herseqovina, Çernoqoriya, Şimali Makedoniya, Serbiya və Kosovonun məhkəmə sistemlərinin Avropa Şurasının standartlarına - "Western Balkans Dashboard"a uyğunluğunun qiymətləndirilməsini həyata keçirmək yolu ilə həmin ölkələr üçün Avropa İttifaqına üzvlüyün genişləndirilməsi prosesində fəal iştirak edir.

Həmçinin CEPEJ Avropa İttifaqına üzv dövlətlərin məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə hesabatın - "EU Justice Scoreboard"ın hazırlanması çərçivəsində Avropa Komissiyası ilə sıx əməkdaşlığı inkişaf etdirir. 28 ölkə üzrə məhkəmə statistikası bizim komissiyanın nümayəndələri tərəfindən hazırlanır və süni intellekt məhkəmələrinin məhsuldarlığı üzrə yeganə informasiya mənbəyidir.

Ədalət mühakiməsinin keyfiyyətinə və məhkəmə vaxtının idarə edilməsinə gəldikdə isə, CEPEJ bir çox ölkələrdə istifadə olunan çox sayda alətlər işləyib hazırlamışdır (məsələn, kibercinayətkarlıqla mübarizənin idarə edilməsi, keyfiyyətli məhkəmə sistemi çərçivəsində ədalət mühakiməsinə çıxışın dəstəklənməsi üçün məhkəmə kartlarının yaradılması, məhkəmə binalarının təşkili və əlçatanlığı, məhkəmə müddətləri üzrə rəhbər qaydalar və s.).

CEPEJ həmçinin məhkəmə qərarlarının icrası və mediasiya sahəsində Avropa standartlarının tətbiqinə də kömək edir. Məsələn, CEPEJ Avropa məhkəmə sistemlərində vəziyyətin yaxşılaşdırılması üçün mediasiya üzrə elmi araşdırmalara əsaslanan unikal sənədlər işləyib hazırlamışdır:

- Hüquq yaradıcılığı sahəsində mediasiya üzrə Avropa soraqçası;
- Mediasiya mərkəzlərinin davranış məcəlləsi;
- Mediasiya məsələləri üzrə hazırlıq proqramlarının işlənib hazırlanması və monitorinqi üzrə rəhbər prinsiplər.

Bu il biz məhkəmə qərarlarının icrası üzrə "rəhbər qaydalar"ın qəbul edilməsinin 10 illiyini qeyd edirik və çərşənbə günü Strasburqda Beynəlxalq Məhkəmə İcraçıları İttifaqı ilə birlikdə Ümumdünya İcra Forumunu keçiririk. Bu forumda informasiya texnologiyalarının müxtəlif istifadə təcrübələri, o cümlədən icra işində süni intellekt alqoritmləri təqdim ediləcəkdir. Eyni zamanda CEPEJ Avropa Şurasına üzv dövlətlərin fərdi sorğuları əsasında yardım proqramlarını işləyib hazırlamış və uğurla həyata keçirmişdir. Belə ki, CEPEJ Avropa Konvensiyasının və Avropa Şurasının digər sənədlərinin tələblərinə uyğunluğunu yoxlamaq üçün milli ədalət mühakiməsi sistemlərinin təhlilinin aparılmasına dəfələrlə cəlb edilmiş və 20-dən çox məruzəni təqdim etmişdir (məsələn, İsveçrədə mediasiya haqqında, Azərbaycanda hakimlərin seçilməsi prosedurlarının qiymətləndirilməsi haqqında, Portuqaliyada informasiya texnologiyalarının dematerializasiyası və istifadəsi haqqında, Rusiya Federasiyasında dövlət orqanlarına dair məhkəmə qərarlarının icrası haqqında, Sloveniyanın və Maltanın ədalət mühakiməsi sistemlərində məhkəmə işlərinə baxılması üzrə ləngimələrlə praktik mübarizə yolları haqqında məruzələr və s.).

CEPEJ 2005-ci ildən etibarən iki ildən bir "Ədalət mühakiməsinin kristal tərəzisi" müsabiqəsini keçirir. Müsabiqənin məqsədi isə ədalət mühakiməsinin həyata keçirilməsi prosesində yenilikçi və səmərəli təcrübənin müəyyənləşdirilməsidir. Ötən il oktyabrın 25-də Avropa Ədliyyə Gününün qeyd edilməsi çərçivəsində Sloveniya Ali Məhkəməsi ədalət mühakiməsinin keyfiyyətinin artırılması sahəsində layihəyə görə mükafatlandırıldı, Hollandiya, İspaniya və Belçikadan olan üç layihə isə diqqətəlayiq görüldü.

Diqqəti Avropa İnsan Hüquqları Məhkəməsi sədrinin və hakimlərinin CEPEJ-nin iyunda keçirilən plenar iclasında iştirakına cəlb etmək istərdim. Bu iclas çərçivəsində Avropa Məhkəməsinin qərarlarında CEPEJ-nin müxtəlif - həm praktiki, həm də elmi mənbələrinə istinadların artırılması barədə qərar qəbul edilmişdir ki, bu da öz növbəsində onların milli səviyyədə həyata keçirilməsini stimullaşdıracaq və üzv dövlətlərdə məhkəmə sistemlərinin təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Hazırda insan hüquqlarının və hüququn aliliyinin təmin edilməsi sahəsində əsas problemlər rəqəmsal texnologiyalardır. Cəmiyyətdə rəqəmsal dəyişikliklər dalğası Avropa dövlətlərinin məhkəmə sistemlərinə də təsir göstərir. Bu böyük rəqəmsal transformasiyada istifadə olunan texnologiyalar arasında süni intellekt ən sensasiyalı və həm də ən çox şübhə doğuran texnologiyadır.

Bununla əlaqədar kiberədliyyə üzrə "rəhbər qaydalar"a uyğun olaraq Komissiya ədalət mühakiməsi orqanlarının işçilərinə "proqnozlaşdırılan ədalət mühakiməsi" anlayışının ən yaxşı başa düşülməsi üçün, habelə məhkəmə təcrübəsi məlumatlarının işlənməsi sistemləri üzrə bəzi mülki mübahisələrdə kompensasiyalara dair şkalaların tərtib edilməsi, cinayətlərin törədilmə yerlərinin və cinayət əməli törətmiş şəxslərin xüsusiyyətlərinin müəyyən edilməsi məqsədilə cinayət araşdırmalarında alqoritmlərdən istifadə edilməsinə dair açarları təqdim edir.

Süni intellektin artan əhəmiyyətini, habelə ədalət mühakiməsinin keyfiyyətini artırmaq üçün ondan istifadənin gözlənilən üstünlüklərini nəzərə alaraq CEPEJ tərəfindən "Süni intellektin ədalət mühakiməsi sistemləri və onlara aid münasibətlərdə istifadəsinə dair Avropa Etik Xartiyası"nın beş prinsipi qəbul edilmişdir.

Xartiyanın hazırlanması zamanı məhkəmə sistemlərində süni intellektin istifadəsi ilə bağlı hüquqi məsələnin dərin araşdırılması aparılmışdır. Bu işə görə Fransa, Böyük Britaniya və İtaliyadan olan həmkarlarım məsuliyyət daşıyırdılar. Bu Xartiya süni intellektə əsaslanan, məhkəmə qərarlarının və məhkəmə fəaliyyəti üzrə məlumatların işlənməsinə yönəlmiş alət və xidmətlərin işlənib hazırlanmasına və tətbiqinə cavabdeh olan dövlət işçiləri və fiziki şəxslər, həmçinin qanunvericilik bazasına və ya normativ bazaya, bu cür alətlərin və xidmətlərin işlənib hazırlanmasına, istifadəsinə və onlara nəzarət edilməsinə cavabdeh olan şəxslər, habelə insan hüquqları, cinayət ədliyyəsi və inzibati hüquqpozmalar sahəsində elmi tədqiqatların aparılmasına cavabdeh olan şəxslər üçün nəzərdə tutulmuşdur.

Məhkəmə sistemlərində bu cür alətlərin və xidmətlərin istifadəsi ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına yönəlmişdir. Bununla yanaşı, ədalət mühakiməsi vicdanla, İnsan Hüquqları üzrə Avropa Konvensiyasında və Fərdi məlumatların mühafizəsi haqqında Konvensiyada təsbit edilmiş əsas insan hüquqları nəzərə alınmaqla, habelə bu sahədə ədalət mühakiməsi sahəsində dövlət siyasətinin işlənib hazırlanmasında rəhbər tutulmalı olan digər əsas prinsiplərə uyğun olaraq həyata keçirilməlidir.

Süni intellektin köməyi ilə məhkəmə qərarlarının işlənmə sistemlərini işləyib hazırlayan şəxslərin fikrincə, mülki, kommersiya və inzibati məsələlərdə bu cür işlənmə qanunun tətbiqinin proqnozlaşdırılma səviyyəsini artıra və bu Xartiyada qeyd edilmiş prinsiplərə riayət etmək şərti ilə qəbul edilən məhkəmə qərarlarının ardıcıllığına imkan yarada bilər.

Cinayət-hüquqi məsələlərdə süni intellektdən istifadə ədalətli məhkəmə təhqiqatının təminatlarına uyğun olaraq məxfi məlumatlar əsasında ayrı-seçkiliyin qarşısını almaq məqsədilə ən ciddi qeyd-şərtlərlə nəzərdən keçirilməlidir. Məlumatların işlənməsinin hüquqi məsləhətlərin verilməsində, sənədlərin işlənib hazırlanmasında, qərarların qəbul edilməsi prosesində, hüquqi qeyri-müəyyənliyin və məhkəmə qərarlarının gözlənilməzliyinin azaldılmasında yardım göstərilməsi və ya istifadəçinin məsləhətləndirilməsi üçün nəzərdə tutulmasından asılı olmayaraq, onun şəffaflıq, qərəzsizlik və dürüstlük prinsiplərinə əməl edilməklə və kənar müstəqil ekspert rəyi ilə təsdiqlənməklə həyata keçirilməsi olduqca vacibdir.

"Proqnozlaşdırılan ədalət mühakiməsi" anlayışının tərəfdarları presedent hüququnun şəffaflığı, proqnozlaşdırıla bilməsi və unifikasiyası baxımından üstünlükləri vurğulayırlar, müxaliflər isə proqram təminatı ilə bağlı məhdudiyyətləri və arqumentasiyanın qeyri-obyektivliyini qeyd edirlər. Bu texnologiyalara xas olan risklər hətta qərarqəbuletmə prosesinin çərçivəsindən kənara çıxa və Avropa Şurasının xüsusilə sadiq olduğu hüquq aliliyinin və məhkəmə sistemlərinin ən mühüm funksional elementlərinə təsir göstərə bilər.

Söhbət xüsusilə hüququn aliliyi kimi prinsiplərdən gedir: bu alətlər təkcə hansısa hərəkətlərə sövq etmir, həm də praktiki olaraq müəyyənedici xarakter daşıyır və hakimin mülahizəsinin suveren azadlığını tənzimləyərək qanunu tamamlaya bilən və potensial olaraq uzunmüddətli perspektivdə artıq məhkəmələr tərəfindən konkret işlərin əsaslandırılmasına deyil, daha əvvəl digər məhkəmələrin təyin etdiyi orta kompensasiya ilə bağlı olan sırf statistik hesablamalara əsaslanan məhkəmə qərarlarının standartlaşmasına gətirib çıxara bilən normativliyin yeni formasını yaradır.

Məsələ bu qərarların Avropa Konvensiyasında təsbit edilmiş fərdi hüquqlarla uzlaşmasından ibarətdir. Onlara ədalətli məhkəmə təhqiqatı hüququ (məhz qanunla müəyyən edilmiş səlahiyyətli hakim hüququ, müstəqil və qərəzsiz məhkəmə və məhkəmə təhqiqatında tərəflərin bərabərliyi hüququ) və açıq mənbələrdə verilən məlumatların kifayət qədər mühafizə olunmadığı halda şəxsi həyata və ailə həyatına hörmət hüququ daxildir.

Bununla yanaşı, qərarın necə çıxarıldığını bilmək vəkillər tərəfindən işin nəticəsinin proqnozlaşdırılmasında həmişə vacib element olub, bu, vəkillər üçün bəzən hakimlə tanışlıq, demək olar ki, qanunu bilmək qədər vacib olub. Vəkillər uzun müddətdir bu və ya digər hakim və ya məhkəmə kollegiyası ilə təmasda olan müştərilərinə daha yaxşı məsləhət vermək üçün məhkəmə tərkibləri arasında empirik yolla az və ya çox dərəcədə tutuşdurma və müqayisə aparmağa çalışırlar.

Bu cür rəqabət üstünlüyü naminə qanunla müəyyən edilmiş ədalətli məhkəmə təhqiqatı prinsipinin real pozulma riski mövcuddur. İctimai və özəl məlumatlara çarpaz istinadlar yolu ilə hakimin profilini tərtib etmək imkanı özəl şirkətlərə və onların vəkillərinə "rahat" məhkəmə axtarışı təcrübəsindən daha fəal istifadə etməyə imkan verə bilər. Bu fenomen artıq çoxdandır ki, Amerika Birləşmiş Ştatlarında və Fransada mətbuat və mətbuatda şəxsi həyatın toxunulmazlığı sahəsində hüquqpozmalar baxımından istifadə edilir, burada iddiaçı öz proqnozlarına görə zərərin kompensasiyası üçün ən çox mükafat verən məhkəməni seçir.

Alqoritmlərin istifadəsi də həmçinin fərdi məlumatların işlənməsi zamanı onların mühafizəsi məsələsini qarşıya qoyur. Buna görə də fərdi məlumatların psevdonimləşdirilməsi və ya avtonomlaşdırılması məsələsi insan hüquqlarının təmin edilməsində böyük rol oynayır. Qanunvericilikdə, məhkəmə qərarlarında hakimlərin adlarının qeyd edilməsi üzv dövlətlər üçün ümumi mütləq vəzifədir - bu, İnsan Hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsində qeyd edilmiş açıq məhkəmə təhqiqatı prinsipinə uyğun olaraq hakimlərin obyektiv qərəzsizliyini təmin etməkdən (hakimlərin kimliyini müəyyən etmək mümkün olmalı, onların vəzifəyə təyin edilməsi və onlara müvafiq vəzifələrin həvalə olunması qanunauyğun aparılmalıdır) və prosessual qaydalara riayət etməkdən (misal üçün, məhkəmə prosesinin açıqlığı və qərarların qəbul edilməsi üçün birgə məsuliyyət) ötrü edilir.

Xartiyanın təsdiq etdiyi prinsiplərin nəzərdən keçirilməsinə keçməzdən əvvəl qeyd etmək istərdim ki, alqoritmlərin neytrallığı bir uydurmadır - alqoritmlərin yaradıcıları bilərəkdən və ya bilmədən özlərinə mənsub dəyər sistemlərini bu alqoritmlərə köçürürlər.

Filosof Erik Sadin qeyd etmişdir ki, səmərəli və hər hansı fərdə bağlı olmayan üz qabığı altında alqoritmik sistemlər istər-istəməz onların müəlliflərinin və ya sifarişçilərinin niyyətlərini əks etdirir, digər insanların həyatları üzərində real və asimmetrik hakimiyyətə gətirib çıxarır.

Tədqiqatçı Orelyen Qrosdidye də hesab edir ki, alqoritm ən yaxşı halda özü-özlüyündə yalnız müəllifinin bu alqoritmə qoyduğu niyyətini anlamağımıza imkan verir və məlumatların işlənməsinin bütün zəncirini (müəllifin niyyəti, kompüter kodunun yazılması, kompüter kodunun yerinə yetirilməsi, icranın konteksti və sonrakı texniki xidmət) sual altında qoyur.

**1-ci Prinsip.** Fundamental hüquqlara hörmət prinsipi: süni intellektə əsaslanan və fundamental hüquqlara uyğun gələn alət və xidmətlərin işlənib hazırlanmasının və tətbiqinin təmin edilməsi.

Məhkəmə qərarlarının və məhkəmə məlumatlarının işlənməsi dəqiq məqsədlərə xidmət etməli və İnsan Hüquqları haqqında Avropa Konvensiyası və Fərdi Məlumatların Mühafizəsi haqqında Konvensiya ilə (Şəxsi xarakterli məlumatların avtomatlaşdırılmış işlənməsi baxımından fiziki şəxslərin mühafizəsi haqqında Konvensiya) təmin edilən fundamental hüquqlara tam uyğun olmalıdır. Mübahisənin həlli məqsədilə və ya məhkəmə qərarlarının çıxarılmasına, yaxud məhkəmə prosesi iştirakçılarını məsləhətləndirməyə yardım edən alət qismində istifadə edildikdə süni intellektə əsaslanan texniki vasitələr ədalət mühakiməsinə və ədalətli məhkəmə təhqiqatına çıxış hüququnun həyata keçirilməsinə mane olmamalıdır (imkanların bərabərliyi və çəkişmə prinsipinə əməl edilməsi).

Onlar həmçinin hüququn aliliyi və qərarqəbuletmə prosesində hakimlərin müstəqilliyi prinsiplərinə tam uyğun olaraq istifadə olunmalıdır. Buna görə də onların "işlənib hazırlanma anından etibarən etika" və ya "işlənib hazırlanma anından etibarən insan hüquqlarına" yanaşmalarına üstünlük verilməlidir. Onlar artıq konvensiyaların müdafiə etdiyi baza dəyərlərinin birbaşa və ya dolayısı ilə pozulmasını qadağan edən qaydaların işlənib hazırlanması və öyrənilməsi fazasında tətbiq olunmaqdan ibarətdir.

Məhkəməyə çıxış hüququ. Mübahisələrin həlli alətlərinin onlayn rejimdə təqdim edilməsi 6-cı maddənin mahiyyəti üzrə məhkəməyə çıxış hüququnu pozmamalıdır (hətta bu hüquq mütləq deyildirsə və onun məhdudlaşdırıla biləcəyi nəzərdə tutulursa belə). Mülki işlərdə, məsələn, hər bir tərəfin onun "mülki hüquq və vəzifələri" ilə bağlı hər hansı mübahisəni məhkəməyə təqdim etmək hüququ vardır. 2015-ci ildə Avropa Şurasının Parlament Assambleyası "Ədalət mühakiməsinə çıxış və internet: potensial və problemlər" adlı qətnamə qəbul etmiş və bu qətnamədə "mübahisələrin onlayn həlli prosedurlarında iştirak edən tərəflərin, Konvensiyanın 6-cı maddəsinə uyğun olaraq, ədalətli məhkəmə təhqiqatının tələblərinə cavab verən, məhkəmədə şikayət etmək proseduruna çıxış hüququnu qorumasını təmin etməyə" çağırmışdır.

Çəkişmə prinsipi. Qiymətləndirmə şkalaları ilə bağlı miqyasların necə qurulduğunu anlamaq, onların mümkün hüdudlarını qiymətləndirmək və onları məhkəmədə müzakirə etmək imkanına malik olmaq üçün müəyyən həcmdə kəmiyyət (məsələn, miqyasın əldə edilməsi üçün işlənilmiş qərarların sayı) və keyfiyyət informasiyasını (qərarların mənşəyi, seçilmiş nümunələrin reprezentativliyi, qərarların iqtisadi və sosial kontekst kimi müxtəlif meyarlar arasında bölüşdürülməsi) vətəndaşlar üçün əlçatan etmək lazımdır.

Tərəflərin bərabərliyi. Texniki vasitələrdən istifadə tərəflər arasında tarazlığın pozulmasına gətirib çıxarmamalıdır. Rəqəmsal vasitələrdən istifadə, həqiqətən də, bəzi operatorlar (vəsaitlərə malik olan müəssisələr, şirkətlər, kompüter savadına malik şəxslər) üçün prosedurları asanlaşdıra və əksinə, kompüterlərlə az və ya çox tanış olan əhalinin bəzi kateqoriyaları üçün çətinliklər yarada bilər. İstifadəçinin ekranın qarşısında tək qalmaması və hüquqi məsləhət üçün müraciət edə biləcəyi və lazım olduqda yardım ala biləcəyi barədə məlumatlandırılması vacibdir.

Hakimlərin qərəzsizliyi və müstəqilliyi. Belə bir sual yaranır ki, "rəqəmdən çıxarılmış norma" xüsusilə də məhkəmə orqanlarının müstəqilliyinin tam şəkildə əldə edilmədiyi sistemlərdə hakimlərin müstəqilliyinə və qərəzsizliyinə dolayısı ilə təsir göstərə bilərmi? Bu sistemlərdə bu cür normaların hakimlərə dolayı təzyiq göstərəcəyi və qərarqəbuletmə zamanı onların simasızlaşmasına səbəb olacağı, yaxud icra hakimiyyətinin normadan kənara çıxanları nəzarətdə saxlamasına imkan yaradacağı riskini istisna etmək olmaz.



Vəkildən istifadə hüququ. Yuxarıda proqnozlaşdıran ədalət mühakiməsi metodlarının hüquqşünaslara verdiyi üstünlükləri və xüsusən müəyyən prosesin müvəffəqiyyət şanslarını empirik və sistematik qaydada qiymətləndirməklə müştərilərə daha əsaslandırılmış məsləhətlər vermək imkanını qeyd etmişdik. Lakin təsəvvür edək ki, hansısa bir mübahisə üzrə tərəflərdən birinin müvəffəqiyyət qazanmaq şansları çox aşağıdır: bu, vəkilin öz müştərisinə yardım göstərmək barədə qərarına təsir göstərə bilərmi? Peşəkar təcrübə hüquqi yardıma ehtiyacı olan şəxslərin son nəticə etibarilə ondan məhrum edilə bilməsi risklərinin minimuma endirilməsinə yönəldilməlidir.

**2-ci Prinsip.** Ayrı-seçkiliyin yolverilməzliyi prinsipi: ayrı-ayrı şəxslər, yaxud şəxslər qrupları arasında hər hansı ayrı-seçkiliyin yaranmasının və ya fəallaşmasının qarşısını birbaşa almaq.

Bu metodların istifadəsi zamanı ayrı-ayrı şəxslərə və ya şəxslər qruplarına aid məlumatın qruplaşdırılması və ya təsnifatlaşdırılması ilə ifadə olunan mövcud qeyri-bərabərlik hallarını aşkara çıxarmaq imkanını nəzərə alaraq, bu proseslərə aidiyyəti olan dövlət işçiləri və fiziki şəxslər göstərilən metodların bu cür ayrı-seçkilik hallarını yaratmadığına və daha da ağırlaşdırmadığına, eləcə də kontekstsiz təhlilə və ya istifadəyə gətirib çıxarmadığına əmin olmalıdırlar.

Müvafiq metodlara həm işlənib hazırlanma, həm də istifadə mərhələlərində, xüsusilə də işlənmə birbaşa və ya dolayısı ilə "məxfi" məlumatlara əsaslandıqda xüsusi diqqət ayrılmalıdır. Bunlara ehtimal edilən etnik və ya irqi mənşə, sosial-iqtisadi vəziyyət, siyasi baxışlar, dini və ya fəlsəfi etiqad, həmkarlar ittifaqı təşkilatlarında üzvlük, genetik, biometrik və s. məlumatlar aid edilə bilər. Bu kimi ayrı-seçkilik halları müəyyən edilərsə, bu risklərin qarşısını almaq və ya mümkün olduqda neytrallaşdırmaq məqsədilə düzəldici tədbirlərin həyata keçirilməsi, habelə aidiyyəti şəxslər arasında məlumatlandırma səviyyəsinin yüksəldilməsi nəzərdə tutulmalıdır. Bu cür ayrı-seçkiliyə qarşı mübarizəyə gəldikdə isə, maşın təlimi və fənlərarası elmi təhlildən istifadə təşviq edilməlidir.

**3-cü Prinsip.** Keyfiyyət və təhlükəsizlik prinsipi: məhkəmə qərarlarının və məlumatlarının işlənməsinə gəldikdə, sertifikatlaşdırılmış mənbələrdən və təhlükəsiz texnoloji mühitdə fənlərarası əsasda işlənib hazırlanmış modellərin tətbiqi ilə qeyri-maddi məlumatlardan istifadə edilməlidir.

Maşın təlimi modellərinin layihələndiriciləri ədalət mühakiməsi sisteminin müvafiq mütəxəssislərinin (hakimlər, prokurorlar, vəkillər və s.), eləcə də hüquq və sosial elmlər sahəsində tədqiqatçıların, müəllimlərin (iqtisadçılar, sosioloqlar və filosoflar kimi) geniş təcrübəsini toplamaq imkanına malik olmalıdırlar. Funksional modellərin yaradılması üçün qısa layihələndirmə dövrləri ərzində qarışıq layihə qruplarının formalaşdırılması bu çoxfənli yanaşmadan maksimum dərəcədə səmərəli istifadə etməyə imkan verən təşkilati üsullardan biridir. Layihə qrupları mövcud etik zəmanətlər haqqında daim məlumat mübadiləsi aparmalı və əks-əlaqəni qoruyub saxlamalıdır. Maşın təlimi alqoritmini həyata keçirən proqram təminatına daxil edilən və məhkəmə qərarlarına əsaslanan məlumatlar sertifikatlaşdırılmış mənbələrdən daxil olmalı və onların faktiki olaraq təlim mexanizmi tərəfindən istifadəsinə qədər dəyişməməlidir. Buna görə də emal edilən qərarın məzmununu və ya mənasını dəyişdirən hər hansı düzəlişlərin baş verməməsi üçün zəmanəti təmin etmək məqsədilə bütün proses izlənilə bilən olmalıdır. Yaradılmış model və alqoritmlər həmçinin sistemin tamlığını və pozulmazlığını təmin edən təhlükəsiz mühitdə yığılma və icra edilə bilmə qabiliyyətinə malik olmalıdır.

**4-cü Prinsip.** Şəffaflıq, qərəzsizlik və dürüstlük prinsipi: məlumatın işlənməsi metodları əlçatan və anlaşıqlı olmalı, kənar auditlərə icazə verilməlidir.

Hüquqi nəticələrdən və şəxslərə təsirdən asılı olaraq müəyyən emal metodlarının əqli mülkiyyətinin mühafizəsi ilə şəffaflığın təmin edilməsi tələbi (işlənib hazırlanma prosesinə çıxış imkanı), neytrallıq (qərəzsizlik), loyallıq və dürüstlük (prioritet-ədalət mühakiməsinin maraqları) arasında balans tapılmalıdır. Qeyd etmək lazımdır ki, bu tədbirlər layihələndirmə və istismarın bütün halqalarına təsir göstərir, çünki seçim metodologiyası, eləcə də məlumatların keyfiyyəti və təşkili birbaşa təlim mərhələsinə təsir göstərir. Birinci variant - bəzən kommersiya sirrinin mühafizəsi ilə məhdudlaşdırılan tam texniki şəffaflıqdır (məsələn, açıq mənbə kodu və sənədlər). Sistem həmçinin nəticələrin əldə edilməsi üsulunu təsvir etmək üçün sadə və anlaşılan dildə, məsələn, təklif edilən xidmətlərin xarakteri, işlənib hazırlanmış alətlər, müsbət nəticələr və səhvetmə riskləri haqqında məlumatın ötürülməsinin köməyi ilə izah oluna bilər. Müstəqil orqanlar və ya ekspertlər sertifikatlaşdırmanı və emal üsullarına nəzarəti təmin edə və ya ilkin məsləhətlər verə bilərlər. Dövlət hakimiyyəti orqanları mütəmadi olaraq şəhadətnamələr verə bilərlər.

**5-ci Prinsip.** İstifadəçi tərəfindən nəzarət prinsipi: göstərişlərə əsaslanan yanaşmadan kənarlaşmaq və istifadəçiyə öz seçiminə görə məsul olan məlumatlandırılmış şəxs rolunda çıxış etməyə imkan vermək.

İstifadəçilərin muxtariyyəti gücləndirilməli və süni intellektə əsaslanan alətlərin və xidmətlərin istifadəsi ilə məhdudlaşmamalıdır. Ədalət mühakiməsi sisteminin mütəxəssisləri istənilən vaxt məhkəmə qərarlarına və nəticənin əldə edilməsi üçün istifadə olunan məlumatlara yenidən baxmaq imkanına malik olmalı, bu zaman verilmiş konkret işin müəyyən xüsusiyyətləri baxımından onlarla mütləq şəkildə öhdəlik daşımamalıdırlar. Məhkəmə prosesinin iştirakçısı süni intellekt əsasında fəaliyyət göstərən alətlərin təklif etdiyi qərarların mütləq xarakter daşıyıb-daşımaması, habelə mövcud olan müxtəlif variantlar və onun hüquqi məsləhət və məhkəməyə müraciət etmək hüququ barədə aydın və anlaşılan dildə məlumatlandırılmalıdır. O, həmçinin işə məhkəmə prosesindən əvvəl və ya məhkəmə prosesi zamanı baxılarkən süni intellektin imkanlarına hər hansı ilkin müraciət barədə dəqiq məlumatlandırılmalı, AİHM-in 6-cı maddəsinin mənası üzrə onun işinə bilavasitə məhkəmə tərəfindən baxıla bilməsi üçün etiraz etmək imkanına malik olmalıdır. Böyük ehtimalla süni intellektə əsaslanan istənilən informasiya sisteminin tətbiqi zamanı istifadəçilərin kompüter savadlılığının artırılması proqramları həyata keçirilməli və ədalət mühakiməsi sistemi mütəxəssislərinin iştirakı ilə ictimai müzakirələr aparılmalıdır.

**Ramin QURBANOV,**
***Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (SEPEJ/CEPEJ) prezidenti, hüquq elmləri doktoru***

# İlham Əliyevin qlobal böhran şəraitində inkişaf modeli

## Ən islahatçı Prezident pandemiya ilə mübarizə dövründə də mühüm sosial-iqtisadi layihələrini reallığa çevirir

*Əvvəli 1-ci səh.*



Hazırda İqtisadiyyat Nazirliyinin sifarişləri əsasında xəzinədarlıq orqanları tərəfindən maliyyələşmə davam etdirilir.

Qəbul edilmiş bu proqramlara, ümumilikdə, 3,5 milyard manat, həcmində vəsaitin ayrılması da təsdiq edir ki, indiyədək Azərbaycan tarixində heç vaxt bu həcmli maliyyə tutumlu iqtisadi-sosial paket təqdim edilməyib.

Azərbaycan həm daxildə, həm də xaricdə pandemiya ilə bağlı həyata keçirilən mübarizə tədbirlərinə əvəzsiz töhfələr verib. Ümumiyyətlə, ölkəmizin koronavirusla ümumbəşəri mübarizə istiqamətində göstərdiyi maddi-texniki, mənəvi dəstək jestləri dünya birliyi tərəfindən təqdir edilir. İndiyə qədər ölkəmiz 10-dan çox dövlətə maddi və mənəvi yardımlar göstərib və bu da onlar tərəfindən minnətdarlıqla qarşılanıb. Ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatına pandemiya ilə mübarizə üçün 10 milyon dollar maddi dəstək göstərib.

### Qlobal böhran dövründə maneəsiz tranzit daşımaları

Ölkə rəhbəri bütün çıxışlarında Azərbaycanın qlobal pandemiya dövründə iqtisadi imkanlarından, reallaşdırılan layihələrdən, etibarlı tranzit imkanlarından söz açaraq qeyd edir ki, bu çətin dövrdə də dövlət makroiqtisadi sabitliyin qorunması üçün düşünülmüş addımlar atır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçirilən Zirvə görüşündə dövlət başçısı vurğuladı ki, pandemiya şəraitində ölkələr arasında ticarətin açıq saxlanılması və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsi vacibdir.

Onlarca ölkəni birləşdirən Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynayan Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib və pandemiya dövründə də etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir.

Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində də cənab İlham Əliyev bu məsələyə toxunaraq demişdi ki, Azərbaycan və Rusiya tranzit-logistika sahəsində işləri intensivləşdirmək barədə razılığa gəliblər. Yeni Azərbaycan etibarlı logistik imkanlarından qlobal pandemiya dövründə də yararlanmaqdadır.

Bəzi iqtisadçılar hesab edirlər ki, 2020-ci il dünya iqtisadiyyatı üçün "itirilmiş il" olacaq. Dünya dövlətlərinin iqtisadiyyatına çox böyük həcmdə dəyəcək zərər ağır fəsadlar törədəcəkdir. Ölkələrin əksəriyyəti borclanmağa məcbur olacaq. Lakin Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər, düşünülmüş siyasət, Prezident İlham Əliyevin müdrik qərarları ölkəmizin bu böhrandan az itki ilə çıxmasını təmin edəcək.

Əminliklə deyə bilərik ki, uğurla icra edilən bu yüksəliş strategiyasının təməlində düşünülmüş siyasət, düzgün aparılan islahatlar və ölkənin gələcəyi ilə bağlı mükəmməl proqramlar dayanır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, mayın 18-dən 22-dək Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərə 10 min nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq. Təlimlər zamanı döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qisimlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanılacaq.

Təlimin niyyətinə əsasən, düşmənin əməliyyat düzülüşünün bütün dərinliyindəki müəyyən istiqamətlərdə qoşunların tətbiqi, kütləvi raket və artilleriya, aviasiya bombahəmlə zərbələrinin endirilməsi, həmçinin silahlanmada olan yüksək dəqiqliyə malik vasitələrin istifadəsi nəzərdə tutulur.

Müxtəlif təlim mərkəzləri və poliqonlarda qoşunların praktiki fəaliyyətləri yoxlanılacaq.

# Azərbaycan Ordusunun keçirəcəyi genişmiqyaslı təlimlər Ermənistanın hərbi-siyasi rəhbərliyini qorxuya salıb

Azərbaycan Ordusunun keçirəcəyi genişmiqyaslı əməliyyat-taktiki təlimlər heç şübhəsiz Ermənistanın hərbi-siyasi rəhbərliyini qorxuya salıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, ordumuz təlimləri ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində keçirir və burada beynəlxalq sənədlərin tələblərinin pozulmasından söhbət gedə bilməz. Bir daha bəyan edirik ki, Azərbaycan öz sərhədləri çərçivəsində istənilən sayda canlı qüvvə və müxtəlif döyüş texnikasını cəlb etməklə təlimlər keçirmək hüququna malikdir.

BMT Baş katibinin ümumdünya atəşkəsinə riayət etmək çağırışına istinad edən Ermənistan tərəfinə xatırladırıq ki, rəsmi Yerevan ilk növbədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini yerinə yetirməlidir.

Qeyd edək ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin mütəmadi təlimlər keçirməsi, beynəlxalq qurumların nəzarətindən yayınaraq külli miqdarda silah-sursat, döyüş texnikası və digər hərbi vasitələri gizlətməsi məhz rəsmi Yerevanın beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən Vyana sənədinin əsas tələblərini kobud surətdə pozmasıdır.

Bildiririk ki, keçiriləcək təlimlərə Ermənistanın bu cür reaksiya verməsi, bir işğalçı dövlət kimi dünya ictimaiyyətinin və beynəlxalq qurumların diqqətini özündən yayındırmaq məqsədini güdür.

Müdafiə Nazirliyi bəyan edir ki, düşmən hər hansı bir təxribata cəhd göstərərsə, Azərbaycan Ordusu Ermənistan tərəfinin bu hərəkətinin qarşısını güc tətbiq etməklə dərhal və qətiyyətlə alacaqdır.

# ICESCO-ya üzv dövlətlərin Təhsil nazirlərinin videokonfransı keçirilib



Təhsil naziri Ceyhun Bayramov ICESCO-ya üzv dövlətlərin Təhsil nazirlərinin videokonfransında iştirak edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, videokonfransa ICESCO-nun Baş katibi Səlim bin Məhəmməd Əl-Malik, Səudiyyə Ərəbistanı, Pakistan, Misir, Mərakeş və digər dövlətlərin Təhsil nazirləri, UNESCO-nun Baş katibinin təhsil məsələləri üzrə müavini Stefania Ciannini, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Təhsil və Bacarıqlar üzrə direktoru Andreas Şlayxer də qatılıb. Videokonfransın əsas mövzusu COVID-19 pandemiyasının təhsil sahəsinə təsiri və mövcud reallığa təhsil sisteminin uyğunlaşdırılması olub.

Ceyhun Bayramov çıxışında pandemiya dövründə ölkəmizdə təhsil hüququnun fasiləsiz təmin edilməsi məqsədilə atılmış addımlar haqqında görüş iştirakçılarına ətraflı məlumat verib. Nazir distant təhsilə keçidi təmin etmək üçün qısa müddət ərzində yaradılmış və ölkədə ən iri onlayn platforma olan "Virtual məktəb" layihəsinin uğurlu nəticələri haqqında bəhs edib, müəllimlərin bu platformanın bütün imkanlarından tam yararlanmaları üçün təlimlərə cəlb edildiyini bildirib.

Təhsil naziri qeyd edib ki, nazirlik tərəfindən atılan digər addımlar çərçivəsində 11 mart tarixindən etibarən teledərslərə start verilib. Ölkənin 2 televiziya kanalında həftədə 5 dəfə olmaqla bütün siniflər üçün 10 fənni əhatə edən dərslər yayımlanmaqdadır. Teledərslər sonradan Təhsil Nazirliyinin video.edu.az portalında sərbəst istifadə üçün yerləşdirilir. Konfrans zamanı sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan təxminən 22 min tələbənin təhsil haqqının Azərbaycan dövləti tərəfindən ödənilməsi xüsusi olaraq vurğulanıb.

Ceyhun Bayramov Təhsil Nazirliyinin ICESCO ilə təhsil sahəsində əməkdaşlığa böyük önəm verdiyini qeyd edərək, Azərbaycan Respublikası tərəfindən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları üçün ümumilikdə 40 təhsil qrantının ayrıldığını görüş iştirakçılarına xatırladıb.

Videokonfransın nəticəsi olaraq ICESCO tərəfindən Əhatəli Humanitar Koalisiya təşəbbüsü irəli sürülüb və Azərbaycan tərəfi təşəbbüsə dəstəyini ifadə edib. Yekunda bəyannamə qəbul olunub.

# Azərbaycanda dövlət vətəndaşlarının, insanlar da bir-birinin dayağıdır

*Əvvəli 1-ci səh.*

Bakıda ilk modul tipli xəstəxana kompleksinin açılışında Prezident İlham Əliyev demişdir: "Biz 10-dan çox ölkəyə yardım etmişik. Texniki yardım, maliyyə yardımı, təyyarələr göndərmişik, yük təyyarələri o ölkələrə ki, onlar bizə müraciət edib və onların maddi imkanları məhduddur, onların, belə deyək, müraciət edəcəyi başqa bir ölkə yoxdur. Ondan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır, əməldə. Biz o ölkələrdənik ki, əməldə bunu göstəririk".

Bütün bunlar dövlət başçısının uzaqgörən siyasətindən, eləcə də xalqımızın çətinliyi olanı darda qoymamaq, imkansıza əl tutmaq, insanların dərdinə şərik çıxmaq kimi ali keyfiyyətlərindən qaynaqlanır. Koronavirusla mübarizə şəraitində insanlarımızın yaxşı nəyi varsa, onu bölüşmək, paylaşmaq xüsusiyyətləri daha bariz şəkildə özünü göstərdi. Heç kəs çətinlikdə, darda qalmadı, unudulmadı, ehtiyac çəkmədi. Pandemiya ilə bağlı müvəqqəti olaraq işini itirənlərə, işsiz vətəndaşlara, tənha qocalara ilk növbədə dövlət özü kömək əlini uzatdı, yardım göstərdi. Bundan əlavə, insanların özü bir-birinə dəstək oldu. Əlbəttə, ilk təşəbbüs yenə də Prezidentdən gəldi. Dövlət başçısı bir illik əməkhaqqı məbləğini Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə etdi. Bir illik əməkhaqqını Birinci vitse-prezident Mehriban xanım Əliyeva da ianə kimi bu fonda verdi. Bu xeyirxah, humanist təşəbbüs xalqımız tərəfindən rəğbətlə qarşılandı və ona qoşulanların sayı tezliklə artdı.

Dövlət başçısı bunu təqdirəlayiq hal kimi dəyərləndirir: "Dövlət qurumları, vətəndaş cəmiyyəti, vətəndaşlar, biz bir nöqtəyə vurmalıyıq. Biz həmrəylik, birlik göstərmişik. Həmrəyliyin təzahürlərindən biri də odur ki, həm dövlət, həm özəl sektor, sahibkarlar, ayrı-ayrı adamlar imkansız insanlara əl tuturlar, kömək göstərirlər, onları ərzaq malları ilə təchiz edirlər. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr verirlər. Artıq fondda 100 milyon manatdan çox vəsait toplanıb. Bütün bunlar bizim xalqımızın ən yüksək xüsusiyyətlərini göstərir: mərhəmət, imkansızlara diqqət, yardım, birlik, həmrəylik".

Bu həmrəylik özünü müxtəlif formalarda büruzə verdi. İmkanlı soydaşlarımız ehtiyacı olanlara maddi dəstək göstərdilər. Elələri oldu ki, heç vaxt tanımadığı insanların evinə bağlama göndərdi, pay gətirdi. Milli köklərə bağlı olan gənc oğlan və qızlarımız qocalara, xəstələrə evlərində baş çəkdilər, onlara ev işlərində, ərzaq alınmasında kömək göstərdilər. Belə humanist hərəkətlər bu gün də davam edir.

Lakin təəssüf ki, bu çətin vəziyyətdə kasıbın parasına, ərzaq payına şərik çıxanlar da tapıldı. Bir sıra üzdəniraq vəzifə sahibləri Heydər Əliyev Fondu tərəfindən ehtiyacı olan insanlara göndərilən ərzaq paylarını mənimsədi. Belələrinə oğru demək azdır. Prezidentimiz onların hərəkətlərinin təkcə oğurluq və cinayət deyil, əsl xəyanət olduğunu bildirmişdir. Haqlı olaraq müharibəyə bənzədilən indiki çətin şəraitdə kasıbın maaşını mənimsəyənlərin, ictimai işlərə cəlb edilən vətəndaşların ödəniş kartlarını götürüb oradan özlərinə pul çəkənlərin də adı məhz belədir - xəyanətkar!

Qoy bu xəyanətkarlar gecə-gündüz xəstələrin keşiyində dayanan, neçə müddətdir ev, ailə üzü görməyən həkimlərimizə, hər cür hava şəraitində küçələrdə asayişi qoruyan polis işçilərimizə, dənizdə əmək növbələrinin uzadılmasını xahiş edən neftçilərimizə, ahıl və tənha insanlara xidmət edən qeyrətli gənclərimizə baxıb utansınlar. Halal qazancından ehtiyacı olanlara pay göndərənlərə baxıb xəcalət çəksinlər. Bilsinlər ki, bəd əməllərinə görə cəzalarını alacaqlar. Haram tikə ilan sümüyü kimi boğazlarında qalacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# DSX-nin rəis müavini, yüksək rütbəli hərbi qulluqçuları və mülki şəxslər şübhəli şəxs qismində saxlanılıblar

Məlumat verildiyi kimi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən həyata keçirilmiş birgə əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməllərinin qarşısı alınıb. Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun mətbuat xidmətlərindən AZƏRTAC-a daxil olmuş birgə məlumatda bildirilir ki, faktla bağlı Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində başlanılmış cinayət işi üzrə DSX-nin rəis müavini general-leytenant Nağıyev Əfqan Vəli oğlu, DSX-nin yüksək rütbəli hərbi qulluqçuları və mülki şəxslər şübhəli şəxs qismində saxlanılıblar.

Hazırda araşdırmalar davam etdirilir.

İctimaiyyətə əlavə məlumat veriləcək.

# "EuroHome" bazarında baş vermiş yanğının söndürülməsinə dair əməliyyat müşavirəsi

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətində (DYMX) Fövqəladə Hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin iştirakı ilə Bakının Binəqədi rayonu ərazisində yerləşən "EuroHome" tikinti materialları bazarında mayın 11-də baş vermiş yanğının söndürülməsi işlərinin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.



FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə çıxış edən Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi, daxili xidmət general-mayoru Füzuli Əsədov bütövlükdə xidmətin işinin təşkili, şəxsi heyətin döyüş və peşə hazırlığının daha da yüksəldilməsi, baş vermiş yanğınların daha az itkilərlə qarşısının alınması və operativ söndürülməsi istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Sonra DYMX-nin rəis müavini polkovnik Rza Xudiyev "EuroHome" tikinti materialları bazarında baş vermiş yanğının söndürülməsi ilə əlaqədar geniş məruzə edib. Bildirib ki, mürəkkəb yanğınlar kateqoriyasına aid edilən bu yanğının söndürülməsi işi təlimata uyğun şəkildə təşkil olunub. Ziyanın minimuma endirilməsi məqsədilə bütün mümkün tədbirlər görülüb.

Müşavirəyə yekun vuran Fövqəladə Hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev "EuroHome" tikinti materialları bazarındakı yanğının söndürülməsi zamanı Dövlət Yanğından Mühafizə Xidmətinin fəaliyyətini ümumilikdə müsbət qiymətləndirdiyini bildirib. O, həmçinin şəxsi heyətin peşə, döyüş və fiziki hazırlığının, eləcə də intizamın daha da gücləndirilməsi, yanğın texnikalarının təmiri və istismarının təşkili, müqavilə əsasında yanğından mühafizəsi təşkil edilən obyektlərdə profilaktik tədbirlərin yerinə yetirilməsi və s. istiqamətlərlə bağlı müvafiq tapşırıqlar verib.

# Hədə-qorxu ilə pul tələb edən şəxslər məsuliyyətə cəlb olunublar

Azərbaycanda aparılan kompleks islahatlar çərçivəsində milli mətbuatımızın inkişafı, azad söz və media mühitinin formalaşdırılması, kütləvi informasiya azadlığının, eləcə də müstəqil jurnalistikanın miqyas və keyfiyyət göstəricilərinin artırılması istiqamətində mühüm irəliləyişlərə müvəffəq olunub. Bununla yanaşı, həyata keçirilən bu mütərəqqi siyasətə kölgə sala biləcək mənfi amillərə, o cümlədən kütləvi informasiya azadlığından və jurnalist hüquqlarından sui-istifadə edilərək ayrı-ayrı şəxslər barəsində böhtan xarakterli və rüsvayedici məlumatları mütəmadi olaraq mətbu orqanlarda dərc etdirib dayandırılması müqabilində vətəndaşlardan pul tələb edilməsi, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması kimi hallara rast gəlinməkdədir.

Prokurorluq orqanları tərəfindən belə qanunsuz hallara qarşı qanunamüvafiq tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Azel TV" xəbər portalının baş redaktoru Əfqan Sadıqovun qanunsuz əməlləri barədə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində Əfqan Sadıqovun "Xəbərfakt.az" internet xəbər portalının baş redaktoru Sakit Muradov ilə qabaqcadan əlbir olaraq barələrində rüsvayedici məlumatları silsilə məqalələrlə kütləvi informasiya vasitələrində yayacaqları hədəsi ilə cari il mayın 9-da Sumqayıt Şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsləri ilə görüşərək həmin məlumatların yayımlanmaması müqabilində 15 min manat məbləğində pul vəsaitini tələb etdikləri müəyyən olunub.

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən məhkəmə qərarı əsasında həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində mayın 13-də hər iki şəxs cinayətkar niyyətlərini həyata keçirərək vəzifəli şəxslərdən tələb etdikləri pulun 10 min manatını paytaxtın Xətai rayonu ərazisində alarkən cinayət başında yaxalanıblar. Cinayətin predmeti olan 10 min manat pul vəsaiti aşkarlanaraq götürülüb.

Əfqan Sadıqov törətdiyi cinayət əməli ilə bağlı ifadə verməkdən imtina etsə də, digər şübhəli şəxs Sakit Muradov törətdikləri əməli tam etiraf edib. Bundan başqa, onların törətdikləri cinayət əməllərinə dair əməliyyat-texniki tədbirlər nəticəsində sübutlar əldə olunub.

Faktla bağlı Cinayət Məcəlləsinin 182.2.1-ci və 182.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında xeyli miqdarda əmlakı hədə-qorxu ilə tələb etmə) maddələri ilə cinayət işi başlanıb.

Əfqan Sadıqov və Sakit Muradov təqsirləndirilən şəxs qismində cəlb ediliblər. Ə.Sadıqovun barəsində məhkəmənin qərarı ilə həbs, S.Muradovun barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə təqsirkar şəxslərin dairəsinin tam müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Biz birlikdə güclüyük!

# Uzaqgörən siyasət, uğurlu nəticə

Əvvəli 1-ci səh.



Uzaqgörənliklə aparılan siyasət nəticəsində indi ölkəmizin böhrandan çıxmaq üçün geniş imkanları var.

Hazırda siyasətçilərin, iqtisadçıların, maliyyə qurumlarının ekspertlərinin tez-tez işlətdiyi bir ifadə var: "Dünya pandemiya dövründən sonra əvvəlki kimi olmayacaq, dünya dəyişəcək". Bu, beynəlxalq münasibətlərdə, eyni təşkilata üzv olan dövlətlər arasında da özünü göstərəcək. Daha doğrusu, bu gün həmin münasibətlərin konturları aydın şəkildə görünür. Əvvəllər mövcud olan müttəfiqlik kimi anlayışların yalnız sözdən ibarət olduğunu da hamı gördü. Belə ki, bu çətin dövrdə bir ittifaq tərkibində birləşən dövlətlər dövlət mənafeyini ittifaq mənafeyindən üstün tutdu.

Koronavirus pandemiyası hər bir dövlətin istehsalda gündəlik tələbat mallarına üstünlük verməsi zərurətini də ortaya qoydu. İndiyədək inkişaf etmiş ölkələr daha çox gəlir gətirən iritutumlu sənaye sahələrində məhsul istehsalına üstünlük verirdi, gündəlik tələbat mallarını isə idxal edirdi. Pandemiyanın tüğyan etdiyi dövrdə hamıya aydın oldu ki, hər bir ölkə gündəlik tələbat mallarının istehsalına diqqət yetirməlidir. Məsələn, dünya iqtisadiyyatında sənaye məhsulunun istehsalına görə lider olan ABŞ tibbi maska və digər qoruyucu vasitələrin yoxluğu ucbatından rəzil duruma düşdü. ABŞ Çindən və Taylanddan Avropadakı müttəfiqlərinə göndərilən maska və digər tibbi avadanlıqları pul və zor gücünə öz ölkəsinə gətirtdi. Onu da qeyd edək ki, sadə texnologiya əsasında ərsəyə gələ bilən tibbi maskanın istehsalında başqalarından asılılıq ABŞ-ın dünyadakı yenilməzlik imicinə böyük zərbə vurdu.

Azərbaycanda uğurla həyata keçirilən qeyri-neft sektoru və qeyri-neft sənayesinin inkişafı siyasəti bu gün öz bəhrəsini verir. Bu islahatların sayəsində bir çox gündəlik tələbat malları ölkəmizdə istehsal olunur, üstəlik, onlar xarici bazara da ixrac edilir. Vaxtında aparılan bu islahatlar ölkəmizin hərtərəfli inkişafını təmin etməklə yanaşı, idxaldan asılılığı minimuma endirdi. Eyni zamanda ölkənin neft gəlirlərindən asılılığını da xeyli azaltdı.

Prezident İlham Əliyev daxili istehsalın stimullaşdırılmasının əhəmiyyətini vurğulayaraq demişdir: "Əlbəttə ki, daxili istehlak daxili istehsal hesabına stimullaşdırılmalıdır. Özümüzü təminetmə əmsalına gəldikdə, bu sahədə daha dəqiq statistika aparılmalıdır. Çünki müxtəlif dövlət qurumlarından mənə fərqli rəqəmlər təqdim edilir. Ona görə, bunu da sizə tapşırıram, bütün dövlət qurumlarının rəqəmlərini təhlil edin və real vəziyyəti mənə məruzə edin ki, bizim özümüzü təminetmə əmsalı əsas istehlak malları üzrə nədən ibarətdir və biz öz siyasətimizi daha dəqiq proqnozlaşdıraq. O cümlədən Sahibkarlara Dəstək Fondu hesabına o sahələrə vəsait, kredit ayıraq ki, o sahələr hələ idxaldan asılıdır".

Dövlət başçısı iqtisadiyyat naziri Mikayıl Cabbarova, həmçinin tapşırmışdır ki, bu məhsullar istehsal edilərkən xarici komponentlərdən asılı olmasın. Ona görə ki, bu xammalın qiyməti dünya bazarında artanda o, yerli istehsal olsa da, qiyməti yüksək olur. Dövlət başçısının məqsədi odur ki, daxili istehlak mallarının qiyməti aşağı olsun ki, hər bir vətəndaşın onu almaq imkanı yaransın.

Azərbaycanda aparılan islahatlar bir daha onu göstərdi ki, dövlətin bu istiqamətdə həyata keçirtdiyi siyasət düzgündür. Fövqəladə vəziyyətdə ölkənin iqtisadi inkişafına vurula biləcək ziyanı minimum səviyyəyə endirmək mümkündür. Üstəlik, əhalinin gündəlik tələbat mallarına olan ehtiyacı ödənilir, ən başlıcası isə qiymətlər Azərbaycan vətəndaşının alıcılıq qabiliyyətinə uyğundur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bronxial astmalı uşaqlara qayğı gərəkdir

Hər il may ayının əvvəlində Ümumdünya Bronxial Astma ilə Mübarizə günü qeyd olunur. Bu günün qeyd edilməsində məqsəd cəmiyyəti bronxial astma (BA) xəstəliyi, səbəbləri və nəticələri barədə məlumatla təmin etməkdir. BA uşaqlarda ən çox rast gələnən xroniki ağciyər xəstəliyi olub, xroniki iltihab və vaxtaşırı boğulma tutmaları ilə özünü büruzə verir.



Hazırda dünyada 300 milyona qədər insan bronxial astma xəstəliyindən əziyyət çəkir, bu xəstəliyə tutulma halları illər keçdikcə daha da artır. İnkişaf etmiş ölkələrdə astma 18 yaşadək uşaqların təqribən 12%-də rast gəlinən xronik xəstəlikdir və 15 yaşadək uşaqlar arasında oğlanlarda daha çox qeydə alınır.

Aşağıdakı risk faktorlarının təsiri nəticəsində astmanın yaranması müşahidə olunur:

- İrsi (genetik) meyillilik - bu, ətraf mühitdə mövcud olan hissəciklərə və maddələrə qarşı allergik reaksiyanın irsi meyilliyinin olmasıdır. Ailə üzvlərində astma, allergiya və ya ekzema olan uşaqlarda astmanın inkişaf etmə riski yüksəkdir.
- Əlverişsiz ətraf mühit amilləri - soyuq hava şəraiti və ya atmosfer təzyiqinin dəyişməsi, yağış və ya külək astmanın əlamətlərinin yaranmasına səbəb ola bilər.
- Yuxarı tənəffüs yollarının infeksiyaları - bu infeksiyalar əsasən körpələrdə və kiçikyaşlı uşaqlarda müşahidə olunur. Bu infeksiyalar rinovirus (soyuqdəymənin əsas səbəbi), respirator sinstisial virus, qrip və paraqrip virusları və digər viruslar tərəfindən törədilir. COVID-19 pandemiyasından əvvəl respirator sintisial virus infeksiyaları bronxial astmanın inkişaf riskini 2-12 dəfə artırırdı.
- Fiziki hərəkətlər - tənəffüs yollarının daralması fiziki hərəkətlərdən sonra da inkişaf edə bilər. Təngnəfəslik, fitverici tənəffüs və öksürək, adətən, fiziki aktivlikdən 5-10 dəqiqə sonra baş verir və 20-45 dəqiqədən sonra keçir. Bu, fiziki hərəkətlərdən sonra yaranan astma adlanır.
- Allergenlər və qıcıqlandırıcılar - məişət və ətraf mühit allergenləri 3 yaşadək uşaqlarda astmanın əsas törədicilərindəndir. Qıcıqlandırıcı və allergen amillərə aiddir:

  - Məişət tozu, ev əşyalarında olan tozlar (həmçinin gənə, tarakan, siçan ifrazatı);
  - Heyvanlar, xüsusən it, pişik və quş tükləri və digər xəzli heyvanlarla təmas (məsələn, dovşan və s.);
  - Rütubətli, nəm yerlərdə olan göbələk sporları;
  - Ağac və bitki tozları, xüsusən də bitkilərin çiçəkləməsi dövründə (aprel ayından sentyabra qədər);
  - Tütün tüstüsü;
  - Sənaye tullantıları və nəqliyyat vasitələri ilə havanın çirklənməsi. Qatı tüstü və sərt hissəciklər də daxil olmaqla, havanın çirklənməsi astmanın əlamətlərinin əmələ gəlməsinə təsir edir.

- Əsəb və qorxu kimi həddindən artıq emosional vəziyyətlər - COVID-19 xəstəliyinin epidemiyası ilə əlaqədar ətrafdakılardan, mediadan və sosial şəbəkələrdən alınan neqativ məlumatlar uşaq orqanizminə mənfi təsir göstərə, onda stres yaranmasına və hətta astma tutmalarına səbəb ola bilər.

Üzləşdiyimiz yeni koronavirus xəstəliyi epidemiyası zamanı körpələr daxil olmaqla, uşaqlarda aşağı tənəffüs yollarının kəskin infeksiyalarına və habelə emosional dəyişikliklərə diqqət yetirməyə məcbur edir. Astmalı xəstələrdə simptomlar gün və ya həftə ərzində bir neçə dəfə müşahidə oluna bilər. Uşaqlarda astmanın ümumi simptomlarına fiziki aktivlik zamanı, gecələr və ya gülüş zamanı baş verə biləcək tənəffüs çətinləşməsi tutmaları aiddir. Təkrarlanan astma tutmaları yuxusuzluq, yorğunluq, aktivliyin aşağı səviyyədə olması, həmçinin məktəbdə dərslərə davamiyyətsizlik kimi əlamətlərlə müşayiət olunur.

Bronxial astma zamanı tənəffüs yollarının divarları qalınlaşır, ətrafındakı əzələlər büzülür və həddindən artıq selik əmələ gəlir, nəticədə tənəffüs yolları daralır və tənəffüs çətinləşir. Xəstəlik təngnəfəslik, xırıltı, fitverici tənəffüs, döş qəfəsində ağrı və sıxılma və öskürək kimi simptomlarla özünü göstərir. Bəzən simptomlardan hamısını deyil, yalnız birini görmək olur. Bəzən öskürək yeganə əlamət ola bilər.

Uşaqlarda bronxial astmanın etiologiyasında soyuqdəymə və respirator virus infeksiyaları ilə yanaşı, qida allergiyası da rol oynayır. Buna görə də astma xəstəliyini nəzarət altında saxlamaq üçün aşağıdakı qaydalara əməl edilməsi vacibdir:

- COVID-19 infeksiyası şübhəli və ya təsdiqlənmiş insanlarla yaxın təmasdan çəkinin;
- Qida allergiyası olan uşaqların qıdasına diqqət yetirin;
- Xarici allergenlərdən qaçın;
- Həkiminizin müalicə təyinatına əsasən dərman qəbul edin;
- Xəstəxanada və poliklinikada tibbi sənədinizin olmasına əmin olun;
- Sağlam qidalanmaq və fiziki məşq edərək ümumi sağlamlığınızı qoruyun;
- Qripə tutulmamaq üçün mövsümi qripə qarşı peyvənd etdirin;
- Astma risk faktorlarından qaçının.

Əgər allergiya simptomları müşahidə olunursa, dəri və ya qan testi ilə müayinə tövsiyə edilə bilər. Bu müayinələr allergeni təyin etməyə və onun aradan qaldırılma zəruriliyini müəyyən etməyə (allergen mənbəyini evdən uzaqlaşdırmaq, küçəyə çıxdıqda ağız və burunu örtən xüsusi maskadan istifadə) kömək ola bilər.

Uşaq ağır bronxial astma keçirsə xəstəxanada, yüngül formada isə evdə müalicə ala bilər. Həkiminiz astmanın ağırlığına əsaslanaraq müalicə planı hazırlayacaq. Müalicə planında uşağınızın astma dərmanlarını nə vaxt və necə istifadə etməsi, astma ağırlaşdıqda nə ediləcəyi və uşağınızın təcili yardıma ehtiyacı ola biləcəyi və bu vəziyyətdə nə ediləcəyi izah edilir. Bundan əlavə, həkim bronxial astma tutmasına səbəb olan amilləri müəyyənləşdirməyə kömək edir.

Astmalı uşaqların müalicəsində başlıca dərmanlar birbaşa tənəffüs yollarına verilən dərmanlardır. Bu xəstələrdə iki növ dərman istifadə olunur: profilaktik və müalicəvi dərmanlar. Müasir dərmanlar astmanın qarşısını almaq və nəzarətdə saxlamağa imkan verir. Bununla yanaşı, risk faktorları vaxtında aradan qaldırılmalıdır, məsələn, xəstəliyin allergik formasında allergenə spesifik immunoterapiyanın, uşaqların tütün tüstüsü inhalyasiyasının qarşısını almaq və s.

COVID-19 virusunun yayılmasının dayandırılması üçün tətbiq olunan karantin rejimilə əlaqədar insanlar evdə qalaraq ailədə daha çox vaxt sərf edirlər. Bu şəraitdə valideyni siqaret çəkən uşaqlar daha çox tütün tüstüsünün təsirinə məruz qalırlar. Bu, uşaqların, xüsusilə də inkişaf etməkdə olan körpələrin ağciyərlərinə zərər verir və bronxial astmanın başlanmasına səbəb ola bilər. Evdə siqaret çəkən valideynlərin uşaqları bu tüstü ilə nəfəs aldıqlarından passiv siqaret çəkən olurlar.

Siqaretin tərkibində bir çox zərərli kimyəvi maddələr və toksinlər var. Tez-tez tütün istifadə etdikdən sonra "passiv tüstü" adlanan tüstü otaqda qalır. Passiv tüstü paltarlara, mebellərə və xalçalara hopur və uşaqlar tərəfindən inhalyasiya olunur.

Mənzilli binalarda tütün tüstüsü dəhlizlər və pilləkənlər kimi ümumi sahələrə keçir. Ayrı bir otaqda və yaxud da pəncərəni açaraq siqaret çəkmək uşaqları passiv siqaret çəkməyə məruz qalmaqdan qorumur. Xüsusilə kiçikyaşlı uşaqlar siqaret tüstüsünə qarşı daha həssasdırlar. Uşaqlar əsasən valideynlərinin və ya digər ailə üzvlərinin siqaret çəkmələri üzündən tütün tüstüsündən əziyyət çəkirlər. Əsas mənbə həm hamiləlik dövründə, həm də doğuşdan sonrakı ilk aylarda ananın daim körpəsi ilə bir yerdə olduğu zaman onun yanında siqaret çəkməsi və körpənin sağlamlığına mənfi təsir göstərməsidir. Ananın hamiləlik dövründə siqaret çəkməsi körpənin az çəki ilə doğulmasının, ağciyərlərinin həyat tutumunun az olmasının və südəmər dövrdə yuxu zamanı qəfildən ölməsinin əsas səbəbidir.

Bronxial astma uşaqlıq dövründə ən çox yayılmış xroniki xəstəlikdir. Tədqiqatlar göstərir ki, anaları siqaret çəkən uşaqlarda tənəffüs xəstəlikləri ehtimalı anaları siqaret çəkməyən uşaqlara nisbətən 1,7 dəfə çoxdur, ataların siqaret çəkməsi isə bu riski 1,3 dəfə artırır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, bütün uşaqların təxminən yarısı tütün tüstüsündən əziyyət çəkir, çünki yaşlı insanların 1,2 milyard nəfəri siqaret çəkir. ÜST uşaqlarda passiv tüstünün bronxit, sətəlcəm, öskürək və xırıltı, bəlğəm, astma tutmaları, ani körpə ölümü və hətta ürək-damar zədələri və s. kimi patologiyalara səbəb olduğu nəticəsinə gəlmişdir.

Passiv siqaret tüstüsünün uşaqlarda astmatik simptomların əmələ gəlməsi və astma tutmalarının kəskinləşməsi üçün risk faktoru olduğuna dair hazırda kifayət qədər sübut var. Məsələn, hər il İngiltərədə valideyninin siqaret çəkməsi nəticəsində 1600-dən 3400-ə qədər uşaqlar arasında yeni bronxial astma xəstəliyi halları qeydə alınır.

Astmanın tamamilə müalicə olunmamasına baxmayaraq, mövcud dərman vasitələri bu xəstəliyi nəzarətdə saxlamağa və həyat keyfiyyətini yaxşılaşdırmağa imkan verir. Astmaya qarşı mübarizənin yeganə yolu dərmanlar deyil. Astmanın yaranmasına səbəb ola bilən - tənəffüs yollarını qıcıqlandıran və iltihabına səbəb olan maddələrlə təmasdan çəkinmək lazımdır. Hər bir astmalı uşaq və onun valideyni hansı qıcıqlandırıcı maddələrdən çəkinməli olduğunu bilməlidir.

Əgər uşaq astma xəstəsidirsə, o zaman xalça, yumşaq oyuncaqlar, yumşaq mebel və açıq kitab rəflərini evdən uzaqlaşdırmaq lazımdır. Quş tükündən hazırlanmış yastıqlar və yun örtüklər sintetik hipoallergen (allergiya yaratmayan) yataq ləvazimatları ilə əvəz olunmalıdır. Allergiya yaradan məişət tozlarına qarşı mübarizənin ən effektiv yolu hava təmizləyicilərindən və su filtri olan tozsoranlardan istifadə etməkdir.

Ev heyvanları və quşlarını evdə saxlamaq tövsiyə edilmir. Bitkilərin çiçəklənməsi dövründə ağac və ot tozlarına qarşı allergiyası olan uşaqları gəzintidən çəkindirmək və bu, mümkün olmadıqda isə gəzinti zamanı ağız və burunu örtən tibbi maskalardan istifadə etmək lazımdır. Ailədə astmalı uşaq varsa, o zaman gigiyenik qaydalara ciddi riayət etmək gərəkdir: otaqlar təmiz, geniş və havalı olmalıdır.

Astma nəticəsində ölüm halları digər xronik xəstəliklərlə müqayisədə çox aşağı səviyyədədir. Bronxial astmalı xəstə uşaqlar yaşıdlarından daha gec yetkinlik yaşına çatırlar. Ağır forma astmalı xəstə uşaqlar müvafiq müalicə almadıqda, onlarda qısa boyluluq meydana gələ bilər.

Tütün tüstüsünün sağlamlığa güclü zərərli təsiri olduğundan ÜST uşaqları passiv siqaret çəkmədən qorumağa çağırır. Buna görə də evdə siqaret çəkən valideynlər öz uşaqlarını, xüsusilə də hazırkı COVID-19 epidemiyası dövründə hansı risklərə məruz qoyduqları haqda düşünməli və bu çağırışa qoşulmalıdırlar.

***Sevil QƏNBƏROVA,***
***Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı, tibb elmləri namizədi***

# Prezidentdən vətəndaşlara növbəti çağırış:

## "Məsuliyyətli olun, qaydaları pozmayın"

Artıq 5 aya yaxındır ki, dünya gözəgörünməz "taclı" düşmənlə, kiçicik bir virusla ölüm-qalım savaşı aparır. Bu savaşın nə vaxt bitəcəyini hələlik heç kəs dəqiq bilmir. Virusa yoluxanların, həyatını itirənlərin sayı günbəgün artır və rəqəmlər saatbasaat dəyişir. Dövlətlər vətəndaşlarının həyatını qorumaq üçün hər cür mübarizə üsullarına əl atırlar.

Sevindiricidir ki, dünyanı sarsıdan COVID-19-a qarşı mübarizə tədbirlərinin effektivliyi ilə seçilən nümunəvi ölkələr sırasında Azərbaycanın da adı çəkilir. Azərbaycan xalqının sağlamlığını düşünərək virusun yayılmasının qarşısını almaq üçün dərhal qabaqlayıcı, çevik tədbirlər həyata keçirən azsaylı və ilk dövlətlərdəndir. Koronavirusun ölkədə geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşının sağlamlığını qorumaq üçün hələ yanvar ayından dövlət tərəfindən lazımi addımlar atılmağa başlayıb. Prezident İlham Əliyev tərəfindən vaxtında qəbul edilən düzgün qərarlar nəticəsində ölkəmiz pandemiyadan minimum itkilərlə çıxa bilib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən də ölkəmizdə həyata keçirilən bu tədbirlər digər ölkələrə nümunə göstərilir.

Yeri gəlmişkən, ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı ikinci məktubunda da Azərbaycan hökumətinin COVID-19-a qarşı mübarizədə qabaqlayıcı tədbirlər həyata keçirdiyi üçün görülən işləri yüksək qiymətləndirib. O, COVID-19-un səbəb olduğu təhdidlərlə mübarizədə qlobal, regional və ölkə səviyyəsində ÜST-ün Azərbaycanla əməkdaşlığa hazır olduğunu bildirib.

Bəli, digər ölkələrlə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və ölüm hallarının sayının az olması ölkəmizin qlobal pandemiyanın öhdəsindən bacarıqla gəldiyini aydın göstərir. Məhz dövlət tərəfindən vaxtında atılan mühüm addımlar, məhdudlaşdırıcı tədbirlər, karantin rejiminin tətbiqi ölkədə koronavirusa kütləvi yoluxma hallarının qarşısını alıb.

### "Bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər"

"Əgər biz bu addımları atmasaydıq, indi vəziyyət nəzarətdən çıxa bilərdi, necə ki, bir çox ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə, səhiyyə sistemi bizdən qat-qat inkişaf etmiş ölkələrdə vəziyyət nəzarətdən çıxıb, xəstələr üçün xəstəxanalarda yataqlar çatmır, xəstələr bəzi hallarda xəstəxanalara ümumiyyətlə qəbul edilmir. Artıq sirr deyil ki, bir çox ölkələrdə yüngül simptomlu xəstələri xəstəxanalara qəbul etmirlər. Onlara deyilir ki, gedin öz evinizdə qalın və faktiki olaraq onlar müalicəsiz qalırlar. Bizdə isə bütün xəstələri, bütün yoluxanları, hətta onun simptomu olmasa belə, mütləq xəstəxanalara qəbul edirik. Biz ən müasir xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına vermişik".

Bu fikirləri mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska və tikiş fabriklərinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında Prezident İlham Əliyev səsləndirib. Dövlət başçısı bildirib ki, qabaqlayıcı tədbirlərin görülməsi birinci mərhələdə bu vəziyyətdən az itkilərlə çıxmağa imkan verdi. Başqa ölkələrlə, o cümlədən əhalisi bizimlə eyni sayda olan ölkələrlə müqayisədə Azərbaycanın vəziyyəti qat-qat yaxşıdır. Ancaq bu o demək deyil ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməliyik. Koronavirus qeyb olmayıb, koronavirus dolaşır. Peyvənd icad edilənə qədər bu problem mövcud olacaq. Ona görə vətəndaşlar da buna hazır olmalıdırlar.

Dövlət başçısı üç həftənin müsbət dinamikasını nəzərə alaraq aprelin 27-dən etibarən karantin qaydalarının yumşaldığını, lakin yumşalma tədbirləri başlayan kimi virusa yoluxanların sayının artdığını qeyd etdi. Bunun da səbəbi vətəndaşların bir çox hallarda məsuliyyətsizlik göstərməsi, tövsiyə olunan qaydalara əməl etməməsi, maska taxmaması, məsafə saxlamaması, dezinfeksiya vasitələrindən istifadə etməməsidir.

Prezident İlham Əliyev vətəndaşları məsuliyyətə və nizam-intizama səsləyib. Ölkə rəhbəri bir daha Azərbaycan əhalisinə müraciət edərək qaydalara əməl etməyə çağırıb: "Həkimlər, mütəxəssislər deyirlər ki, indi əsas şəxsi gigiyenaya fikir vermək, dezinfeksiya vasitələrindən istifadə etmək, bir metr yarım, iki metr məsafə saxlamaq və maska taxmaq lazımdır. Çətin məsələ deyil. Ona görə bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər".

### "Uğurumuzun əsas şərti vətəndaşların məsuliyyətli olmasıdır"

Dövlət başçısı qeyd edib ki, bu sahədə aparıcı beynəlxalq təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı bizim işlərimizə yüksək qiymət verir. Təkcə qalıb vətəndaşların məsuliyyət və nizam-intizam göstərməsi: "...İndiki şəraitdə uğurumuzun əsas şərti vətəndaşların məsuliyyətli olmasıdır. Əks təqdirdə bu xəstəlik nəzarətdən çıxacaq. Biz bunu açıq deməliyik və bilməliyik ki, dövlət nə qədər iş görsə də, vəziyyət nəzarətdən çıxacaq, kütləvi yoluxma halları baş verəcək, insanlar kütləvi qaydada vəfat edəcək, xəstəxanalarda yerlər, reanimasiya şöbələrində süni tənəffüs aparatları çatışmayacaq. Beləliklə, Allah eləməsin, biz indi böyük böhran içində olan ölkələrin vəziyyətinə düşə bilərik. Biz buna qətiyyən yol verə bilmərik. Ona görə mən bir daha bütün vətəndaşlara çağırış edirəm, məsuliyyətli olun, intizamlı olun, qaydaları pozmayın, özünüzü, öz yaxınlarınızı, öz tanışlarınızı qoruyun ki, biz bu bəladan az itkilərlə çıxa bilək.

Mən əminəm ki, biz buna nail olacağıq. Çünki artıq neçə aydır ki, bu pandemiya bütün dünya üçün böyük problemdir. Amma bu günə qədər vəziyyəti nəzarət altında saxlamaq, doğrudan da, böyük nailiyyət hesab oluna bilər. Xüsusilə qeyd etməliyəm ki, indiki şəraitdə cəmiyyətdə mövcud olan həmrəylik bəlkə ən yüksək səviyyədədir. Çünki bütün cəmiyyət bu mübarizədə birləşib".

### Dövlət tərəfindən görülən səmərəli işlərin üstündən xətt çəkməyək

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, koronavirus təhlükəsi hələ sovuşmayıb, yoluxma halları davam edir. Peyvənd tapılana qədər bu problem var olacaq. Belə bir vəziyyətdə hər şey vətəndaşların özündən asılıdır. Vətəndaşlar qaydalara riayət etməsələr, yoluxma hallarının sayı arta, ikinci dalğa başlaya və nəticədə çəkilən bu qədər zəhmət hədər gedə bilər.

Ölkəmizdə görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsəd güdür - vətəndaşların sağlamlığını, həyatını maksimum dərəcədə qorumaq. Lakin xəstəliklə mübarizədə müsbət nəticələrə nail olmaq üçün təkcə dövlət tərəfindən görülən işlər kifayət deyil. Ən böyük məsuliyyət vətəndaşların üzərinə düşür. Dövlətin gördüyü tədbirlərin effektivliyi həm də fərdi qaydada hər bir vətəndaşın üzərinə düşən məsuliyyəti yerinə yetirməsindən asılıdır. Karantin rejiminin yumşaldılması, müəyyən məhdudiyyətlərin aradan qaldırılması əhalidə arxayınlıq, məsuliyyətsizlik yaratmamalıdır. Gəlin, məsuliyyətsizlik edərək koronavirusla mübarizədə dövlət tərəfindən görülən səmərəli işlərin üstündən xətt çəkməyək. Qoyulan qaydalara riayət edək, gərəksiz halda evdən çıxmayaq, küçədə sosial məsafə saxlayaq, tibbi maska taxaq, şəxsi gigiyenaya əməl edək. Bu, hər birimizin şəxsi məsuliyyəti, vətəndaş borcudur. Məsuliyyətli olaq, özümüzü, ailəmizi, ətrafımızı, dolayısı ilə xalqımızı gözəgörünməz düşməndən qoruyaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusa daha 121 nəfər yoluxub, 44 nəfər sağalıb

Azərbaycanda koronavirus infeksiyasına daha 121 yoluxma faktı qeydə alınıb, 44 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 2879 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1833 nəfər müalicə olunaraq sağalıb, 35 nəfər vəfat edib, 1011 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 29 nəfərin vəziyyəti ağır, 38 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 214.291 test aparılıb.

# Koronavirus bəlkə də heç zaman məhv olunmayacaq

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fövqəladə hallar proqramının icraçı direktoru Maykl Rayan koronavirus pandemiyasının bütün Yer kürəsində sürətlə yayılmasından sonra bu infeksiyanın tamamilə məhv ediləcəyinə şübhə ilə yanaşıb.

AZƏRTAC xəbər verir ki, ÜST rəsmisi Cenevrədə keçirilən brifinqdə bu virusun əhali arasında "məskunlaşa" biləcəyi ehtimalını da dilə gətirib. O qeyd edib ki, yüksək effektivliyə malik peyvənd tapılmasa, yeni növ koronavirus bəlkə də məhv olunmayacaq.

Mütəxəssis bildirib ki, insanda Qazanılmış İmmun Çatışmazlığı Sindromunun (QİÇS) törədicisi olan immun çatışmazlığı virusunun (İİV) da kökünü kəsmək mümkün deyil. Lakin tibb elmi bu virusa qarşı dərman preparatları və preventiv tədbirlər hazırlayaraq, onun qorxuncluğunu azalda bilib. Xəstəliklər arasında müqayisə aparmaq niyyətində olmadığını bildirən M.Rayan oxşar ssenarinin koronavirusla da mümkün ola biləcəyini istisna etməyib.

ÜST rəsmisi vurğulayıb ki, təhlükəli ağciyər xəstəliyi COVID-19-un törədicisi SARS-CoV-2 virusunun kökünü Yer üzündən kəsmək üçün yeganə şans yüksək effektli peyvənddən asılıdır. Belə bir peyvənd maddəsi yetərli həcmdə istehsal edilməli, dünyada hamı üçün əlçatanlı olmalı və insanlar onlara bu peyvəndin vurulmasına razılıq verməlidirlər.

Bundan başqa, o, dünyanın müxtəlif ölkələrində səhiyyə sisteminin zəif inkişaf etməsini və ümumiyyətlə, insanlar arasında peyvəndə qarşı skeptik yanaşmanın geniş yayılmasını da növbəti əngəllər kimi dəyərləndirib. M.Rayan hazırda bir sıra xəstəliklərə qarşı effektiv peyvəndlərin mövcudluğuna baxmayaraq, onlardan effektiv istifadənin mümkün olmamasından şikayətlənib və hər il qızılcaya yoluxanların çoxalmasına diqqət çəkib.

ÜST eksperti Maria van Kerkhove isə bildirib ki, hazırkı mərhələdə virusa yoluxanların müəyyən edilməsi, onların təcrid olunması və onlarla təmasda olan şəxslərin nəzarətə götürülməsi, eləcə də xəstələrin effektiv müalicəsi sayəsində virusun yayılmasını nəzarətdə saxlamaq mümkündür. Bununla yanaşı, peyvənd və dərman preparatları üzərində iş aparılır və yüksək təsirli dərman vasitələri virus üzərində qələbəni təmin edə bilərlər.



# REGİONLAR

İnsan sabaha olan inamla yaşayır. İnam olmayanda isə ümidsizliyə qapanır, nə edəcəyini dəqiq-dürüst müəyyənləşdirə bilmir. Neftçala rayonunda da belə bir əhvali-ruhiyyə yaranmışdı. Rayon icra hakimiyyəti işçilərinin özlərinin dediyi kimi, Neftçalada "başlı başını saxlasın" idi. Nizam-intizam, məsuliyyət, tələbkarlıq lazımi səviyyədə deyildi. Dövlət və hökumət tərəfindən qarşıya qoyulan vəzifələr lazımınca yerinə yetirilmir, onların icrasına laqeyd münasibət göstərilirdi. Görülən işlər, həyata keçirilən tədbirlər, demək olar ki, ancaq mərkəzi icra orqanlarının, ayrı-ayrı agentliklərin, səhmdar cəmiyyətlərin payına düşürdü. İcra hakimiyyəti mövcud problemlərin həlli üçün tədbirlər görmədiyindən həmin problemlər getdikcə çoxalır, dərinləşirdi ki, bu da rayon əhalisinin haqlı narazılığına səbəb olurdu. İstər kənd təsərrüfatı işlərinin gedişində, torpaq sahələrindən səmərəsiz istifadədə, istər sosial məsələlərin həllində, istərsə də kadr siyasətində nöqsanlar özünü qabarıq şəkildə göstərirdi. Bələdiyyə və dövlət fondu torpaqları icra hakimiyyəti başçısının şəxsi marağına əsasən bölüşdürülür, icra aparatında, inzibati ərazi nümayəndəliklərində məsul vəzifələr nəinki aylarla, hətta illərlə boş qalırdı. Neftçala şəhərində kənd təsərrüfatı məhsullarının satışı üçün yeni bazar tikilsə də, köhnə, primitiv, antisanitariya şəraitində fəaliyyət göstərən və hər hansı qəza, yanğın yarana biləcəyi halda insan tələfatı ilə qarşılaşmaqla nəticələnəcəyi qaçılmaz olan köhnə bazar bu gün də fəaliyyətdədir. Bu kimi nöqsanların siyahısını artırmaq da olar. Belə "dəymə mənə, dəyməyim sənə" prinsipi rayonda korrupsiya və rüşvətxorluq üçün şərait yaratmışdı.





# İnam irəli aparacaq

## *Neftçalalılar indi hər işin yaxşı olacağına əmindirlər*

Dövlət başçısının 5 mart 2020-ci il tarixdə imzaladığı sərəncamla Mirhəsən Seyidov Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir. Təyinatı ilə əlaqədar Prezident M.Seyidovu qəbul edərək gənc kadr kimi ona inandığını, etimadı doğruldacağına, əhali ilə əlaqəli işləyəcəyinə, onların hər bir müraciətinə diqqətlə yanaşacağına, rayon iqtisadiyyatının inkişafı üçün səmərəli fəaliyyət göstərəcəyinə inam bəslədiyini qeyd etmiş, müvafiq tapşırıq, göstəriş və tövsiyələrini vermişdir. M.Seyidov rayon, şəhər icra hakimiyyəti başçıları arasında ən gənc icra başçısıdır - 31 yaşı var. Bu vəzifəyə təyin olunanadək dövlət və ictimai işlərdə çalışmışdır. Bir gənc kimi respublikamızda idmanın, müasir gəncliyin sağlam, hərtərəfli inkişafının təmin olunması sahəsində dövlət tərəfindən irəli sürülən proqram və layihələrin həyata keçirilməsində yaxından iştirak etmişdir. Xidmətlərinə görə 2017-ci ildə Prezident mükafatına layiq görülmüşdür. Gənclər təşkilatında səmərəli fəaliyyət göstərən M.Seyidov 2014-cü ildən "İrəli" İctimai Birliyinin sədri olmuş və digər ictimai işlərdə özünü bacarıqlı, işgüzar kadr kimi göstərmişdir.

Onun yeni işə başlaması nəinki ölkəmizdə, hətta bütün dünyada çətin və mürəkkəb bir dövrə təsadüf edir. Koronavirus xəstəliyinin meydana çıxması cavan icra başçısı kimi, onun da işini müəyyən qədər çətinləşdirdi. Rayon mərkəzində, qəsəbə, habelə kəndlərdə əhali ilə görüşüb söhbətlər apardı, qayğı və problemləri ilə maraqlandı, onların həlli yollarını müəyyənləşdirməyə başladı. Lakin hər yerdə olduğu kimi, burada da gözlənilməz virusla mübarizə ön plana keçdi və bütün imkanlar, qüvvələr onunla mübarizəyə yönəldildi, hər şey gündəlik olaraq nəzarətə götürüldü. "Evdə qal" çağırışı, müraciəti ilə bağlı əhali arasında hər gün ətraflı izahat işi aparıldı, onların qoruyucu maska, dezinfeksiyaedici məhlul və spirtlə təmin edilməsi, yaşlı, kimsəsiz, aztəminatlı ailələrə yardım göstərilməsi, aztəminatlı vətəndaşların siyahıya alınması, onlara ərzaq yardımı edilməsi, küçə, park, xiyabanların vaxtaşırı dezinfeksiya edilməsi bu sıradandır.

Bütün bu tədbirlər indinin özündə də ardıcıllıqla davam etdirilir. Amma yeri gəlmişkən bir məsələni vurğulamaq istərdik. Hər hansı rayona yeni icra başçısı təyin olunanda bəzi adamlar elə başa düşürlər ki, haqsız da olsalar, onların müraciət və şikayəti müsbət həll olunmalıdır. Buna görə də belə adamlar həqiqətən dərdi-səri olanlarla bir sırada dəstə-dəstə icra hakimiyyəti başçısının qəbuluna tələsirlər. Lakin hamı bilməlidir ki, haqsız və qanunsuz tələb, şikayət, yalan məlumat, xüsusilə indiki dövrdə mələk donuna girə bilmək işə yaramayacaqdır. Təzə icra başçısının belə bir iş üslubu, dəstxəti bəzi "professional" demoqoqların, nəyisə qoparmaq arzusunda olanların ola bilsin ki, döşünə yatmasın, xoşuna gəlməsin. Buna təbii hal kimi baxmaq lazımdır. Amma bir şey də var ki, həqiqət, düz söz acı dərman kimidir. Düz yolu tutanlar həyatda heç vaxt uduzmurlar. Çünki düz həmişə əyrini kəsir. Bizcə, indiki dövrlə səsləşən "ən böyük biclik düzlükdür" deyimi burada da yerinə düşmüş olar.

Qeyd etmək lazımdır ki, bu gün bütün rayonlarımızda koronavirusla əlaqədar müəyyən çətinliklər, qayğılar yaşanır. Kənd təsərrüfatında yaz-tarla işlərinin vaxtında aparılması, ortaya çıxan sosial problemlərin həlli və digər məsələlər xüsusi çeviklik, diqqət, səriştə tələb edir. Yeni icra başçısı bu çətin günlərdə mütəmadi olaraq müşavirələr, onlayn qəbullar keçirərək yerlərdəki vəziyyəti öyrənir, vətəndaşlara lazımi kömək göstərir. Bütün bunları görən Neftçala rayon ictimaiyyəti hər şeyin yaxşı olacağına inanır. İnsanlar ümid edirlər ki, rayonda həm sənaye, həm kənd təsərrüfatı sürətlə inkişaf edəcək, eyni zamanda sosial məsələlər həllini tapacaq, Neftçalanın keçmiş şöhrəti özünə qayıdacaqdır.



## Yaz-tarla işləri uğurla davam etdirilir

Hazırda yaz-tarla işlərinin qızğın çağıdır. Hər bir əkinçi indi günəşi tarlada - iş başında salamlayır. Çoxdan bəri əkin üçün hazırladığı torpağa min bir istək və arzu ilə toxum səpir, birinci çalım yoncasını biçir, buğda zəmilərinə dən suyu verir, mülkiyyətində olan taxılbiçən kombaynları, yükdaşıyan yedək lafetlərini təmir edib saz vəziyyətə gətirir və digər təxirəsalınmaz işlərini görür. Çalışır ki, cari ildə daha çox məhsul yetişdirsin, COVID-19 pandemiyasından əziyyət çəkdiyimiz bu ağır ildə ölkədə məhsul bolluğu yaradılmasına töhfə versin, həm də ailəsi qarşısında üzüağ olsun. Neftçalalı fermerlər, torpaq mülkiyyətçiləri də bu əhvali-ruhiyyə ilə çalışırlar. Onların hər biri dövlət başçısının aqrar sahəyə göstərdiyi diqqət və qayğını başa düşərək ərzaq təhlükəsizliyi proqramının yerinə yetirilməsində, ölkəmizin idxaldan asılılıqdan azad edilməsində, daha çox və keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal olunmasında yaxından iştirak etməyi özünə başlıca vəzifə, borc bilir.

Cari ildə Neftçala rayonunda 5 min 988 hektarda pambıq əkilməsi planlaşdırılmışdır. Bununla əlaqədar rayonda fəaliyyət göstərən üç şirkət - "MKT" MMC, "P-Aqro" MMC və "Azərpambıq" MMC-nin buradakı filialları ilin əvvəlində 1307 nəfər fermer və torpaq mülkiyyətçisi ilə müqavilə bağlamışdır. Koronavirus pandemiyası ilə əlaqədar həmin təşkilatlar çiyid toxumunu və toxumla birlikdə torpaq altına verilən ammofos gübrəsini evlərində əkinçilərə vermişlər. Mütəxəssislərin qənaətinə görə səpin hava şəraiti ilə bağlı olaraq bir qədər ləngisə də, ümumilikdə mütəşəkkil keçir. Toxum səpini uzağı mayın 15-də başa çatdırılacaqdır. Becərmə üçün lazım olan yemləmə gübrəsi kifayət qədər tədarük edilmişdir. Bir çox yerlərdə artıq becərməyə başlanılmışdır.

Rayon üzrə 43 min 66 hektar taxıl sahəsi mövcuddur ki, bunun da 36 min 803 hektarı arpa, 6 min 236 hektarı isə buğdadır. Biz rayonda olarkən 30 min 820 hektar sahə suvarılmış, 27 min 53 hektara mineral gübrələr verilmiş, 1888 hektarda gəmiricilərlə mübarizə tədbirləri aparılmış və 3 min 788 hektara alaq otlarına qarşı herbisid səpilmişdi.





Arpa biçininə artıq sayılı günlər qalmışdır. Neftçala rayonunun taxıl əkilən sahələri qumsal olduğuna görə məhsulun yetişməsi digər yerlərə nisbətən bir neçə gün əvvəl baş verir. Bunu nəzərə alaraq mexanizatorlar kombaynları, taxıldaşıyan traktorları və lafetləri tez bir zamanda təmir edib saz vəziyyətə gətirməyə çalışırlar. Rayon üzrə fiziki və hüquqi şəxslərdə də 70 ədəd kombayn vardır ki, onların da 60-ı biçinə tam hazırdır. Digər sahələrdə - yonca biçini, yazlıq əkinlərdə də işlərin gedişi qənaətbəxş vəziyyətdədir.

## Balıqçılığın inkişafına diqqət daha da artırılacaq

Balıqçılıq Neftçala rayonu üçün ənənəvi sahədir. Çar Rusiyası və ondan sonra 70 illik sovetlər dönəmində balıqçılıq burada sürətlə inkişaf edib. Rayon ərazisində bir neçə balıqçılıq təsərrüfatı fəaliyyət göstərib. Bankə balıq kombinatında istehsal olunan qara kürü bir zamanlar adla idi. Sonralar, SSRİ dağılandan sonra bu rayondakı balıqçılıq təsərrüfatları da süqut etdi, dağıdıldı. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra digər sahələr kimi, Neftçalada balıqçılığın da inkişafı üçün qərar qəbul edildi və xüsusi göstərişlər verildi. Dünya Bankının vəsaiti ilə 1998-ci ildə Xıllı qəsəbəsinin ərazisində müasir tipli yeni nərəbalıqartırma zavodunun tikilməsinə başlandı. 2003-cü ildə prezidentliyə namizəd kimi Neftçalaya seçicilərlə görüşə gələrkən İlham Əliyev müəssisənin açılışını etdi. O vaxtdan 2019-cu il də daxil olmaqla burada 75 milyon ədəd nərə cinsli balıq - nərə, uzunburun, kələmo, bölgə sürfələri yetişdirilərək Xəzər dənizinə buraxılmışdır. Ötən vaxt ərzində müəssisə öz fəaliyyətini xeyli təkmilləşdirmişdir. Hazırda zavod kürü aldığı ana balıqları da özü bəsləyib yetişdirir.

Neftçala rayonunda digər nərəbalıqartırma zavodu Yenikənd kəndi ərazisindədir. 1956-cı ildə istifadəyə verilmiş zavodda avadanlıqlar köhnəldiyi, müasir tələblərə cavab vermədiyi üçün yenidənqurmaya ehtiyac duyulurdu. Buna görə də Kür Təcrübi Nərəbalıqartırma Zavodu adlanan bu müəssisə əsaslı şəkildə yenidən qurulmaqdadır. 50 hektar ərazisi olan zavod qapalı su servis və inkubasiya, balıq sürfələrinin saxlanacağı dairəvi hovuzlar və hər biri 1 hektar olmaqla 21 ədəd böyük nohur sexlərindən ibarətdir. Bundan əlavə, zavodda yardımçı təsərrüfat sahələri yaradılır. Müəssisənin infrastrukturu da yenidən qurulub. Zavod bu yaxınlarda istismara buraxılacaqdır.



Rayonun iri nərəbalıqartırma zavodlarından biri də şəhid Cəlil Cavadovun adını daşıyan Kürağzı Nərəbalıqartırma Zavodu olmuşdur. Qeyd edək ki, bu müəssisə də 1956-cı ildən fəaliyyət göstərməyə başlamışdır. 1990-cı ilədək burada hər il orta hesabla 11 milyon ədəd nərəcinsli balıqların sürfəsi yetişdirilərək Kür çayının mənsəbində Xəzərə buraxılmışdır. Lakin sonralar bu rəqəm ilbəil aşağı düşmüş və 2019-cu ildə 500 minə enmişdir. Avadanlıqlar köhnəldiyi, istehsal prosesi üçün zəruri şərait olmadığına görə müəssisə keçən ilin dekabr ayından fəaliyyətini dayandırmışdır.

Prezident İlham Əliyev rayona yeni icra başçısına gələcək fəaliyyəti ilə bağlı tapşırıq və tövsiyələrini verərkən burada iqtisadiyyatın bütün sahələrinin, o cümlədən balıqçılığın inkişaf etdirilməsinə də toxunmuşdur. Məsələ ilə əlaqədar, yəqin ki, yaxın vaxtlarda müəyyən tədbirlər həyata keçiriləcəkdir. Nohur balıqçılığına gəldikdə isə rayonda bu işlə 5 nəfər sahibkar məşğul olur.

## Sənaye məhəlləsi və avtomobil zavodu fəaliyyətini getdikcə artırır

Kənd təsərrüfatı ilə yanaşı, sənaye istehsalı sahələri Neftçalada əvvəllər də olmuşdur və neftçıxarma rayonda sənayenin yeganə sahəsi olmamışdır. Belə ki, rayon ərazisində çoxlu sayda yodlu su yataqlarının olması aşkar edilərək burada yod-brom zavodu tikilmişdir. Keçən əsrdə SSRİ-də istehsal olunan yodun təxminən 30 faizi bu müəssisənin payına düşürdü. Neftçalada balıqçılıqla məşğul olan müəssisələr üçün taxta materialından çəllək, digər qablaşdırıcı məmulatlar hazırlayan sənaye müəssisələri də var.

Hazırda rayonda sənaye sahəsinin inkişaf etdirilməsi dövlət başçısının nəzarətindədir. 2017-ci ildə istifadəyə verilmiş sənaye məhəlləsində indi 5 MMC fəaliyyət göstərir. Burada balıq yemi, polietilen boru, avtomobil və avtomobillər üçün ehtiyat hissələri, dondurulmuş balıq, kənd təsərrüfatı avadanlıqları istehsalı həyata keçirilir. Sənaye məhəlləsindəki avtomobil zavodunda indi 100 nəfərdən çox neftçalalı işləyir. Neft və yod istehsalı sahələri fəaliyyətdədir. İnvestorların maliyyə yardımı ilə onlar yenidən qurulmuşdur.

## Olimpiya İdman Kompleksi tikintisində işlər sürətlənir

Neftçalalı idmançılar əvvəllər respublikamızda, habelə keçmiş SSRİ məkanında təşkil olunan idman yarışlarında, olimpiadalarda fəal iştirak etmiş və yüksək nəticələrə nail olmuşlar. 90-cı illərin məlum hadisələrindən sonra bütün sahələr kimi, idmanda da geriləmə olmuşdu. 2004-cü ildən etibarən neftdən gələn ilk gəlirlər hesabına ölkəmizin yeni inkişaf dövrü başladı. Elə həmin il fevralın 11-də Prezident İlham Əliyev tərəfindən imzalanan Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində tikinti-quruculuq, abadlıq işləri genişləndirildi. İkinci, üçüncü və hal-hazırda icra olunan proqramlar çərçivəsində digər sahələrlə yanaşı, ölkəmizdə idmanın inkişafı üçün də tədbirlər görülüb və bu işlər davam etdirilməkdədir. Ölkəmizdə 40-dan çox Olimpiya İdman Kompleksi tikilib idmançıların istifadəsinə verilmişdir. Neftçala Olimpiya İdman Kompleksi cari ilin sonunadək istifadəyə veriləcəkdir. İndi burada qızğın iş gedir. Obyekti Gənclər və İdman Nazirliyinin sifarişi ilə "Meqaplus" şirkəti tikir. Kompleksdə üzgüçülük hovuzu, güləş, boks, basketbol, voleybol, tennis zalı, 2 mini futbol meydançası, 28 yeni hotel, restoran, kafe olacaqdır. Tikintiyə 70 nəfər usta və fəhlə cəlb edilib. Tikinti lazımi texnika, mal-materiallarla təchiz olunmuşdur. İnşaatçılar kompleksi ilin sonuna kimi istifadəyə verməyi öhdələrinə götürmüşlər.

## Daha bir məktəb istifadəyə veriləcək

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının, habelə Heydər Əliyev Fondunun xətti ilə rayonda 22 yeni məktəb tikilmiş, 4 məktəb isə əsaslı şəkildə təmir olunmuşdur. Müasir tələblərə cavab verən həmin təhsil ocaqları yeni ləvazimatlar və tədris vasitələri ilə təmin edilmişdir. Bu da təlim-tərbiyə prosesinə öz müsbət təsirini göstərməkdədir. Neftçalalı məktəblilər respublika üzrə keçirilən fənn olimpiadalarında fəal iştirak edərək yaxşı nəticələr qazanırlar. Hazırda rayonun məktəblərində 10 mindən çox şagird təhsil alır və onların təlim-tərbiyəsi ilə 1194 müəllim məşğuldur.

Rayondakı təhsil ocaqlarından biri olan Xıllı qəsəbə 1 saylı tam orta məktəbi yaxşı ənənələrə malikdir. Məktəbin yüzlərlə məzunu ali təhsil almış və hazırda onlar respublikamızın müxtəlif təşkilatlarında çalışırlar. Yaşı yüz ili arxada qoyan məktəbin binası artıq köhnəldiyindən onun təmirinə ehtiyac vardı. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 2019-cu ildə sözügedən təhsil ocağının əsaslı təmirinə başlanılmışdır. Məktəb binasının ümumi sahəsi 6 min 620 kvadratmetrdir. Burada geniş, işıqlı sinif otaqları, kitabxana, akt və idman zalı ilə yanaşı, şagirdlər üçün xüsusi laboratoriya və informatika kabinələri də olacaqdır. Məktəbin ərazisində 24 saat aktiv olan kameralar və siqnalizasiya sistemi quraşdırılmışdır. Məktəbin həyətində Xıllı qəsəbəsindən olan şəhidlərin xatirəsini əks etdirən lövhə, 2 futbol meydançası, qazanxana, su hovuzu tikilmişdir. Əsaslı şəkildə yenidən qurulan məktəbin yeni dərs ilinin əvvəlində istifadəyə verilməsi nəzərdə tutulur.

## Kənd yolları yenidən qurulur

"Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir". Bu müdrik kəlam Ulu Öndər Heydər Əliyevə məxsusdur. Yolları, eyni zamanda iqtisadiyyatın qan damarları da adlandırırlar. Ölkəmizdə yol infrastrukturunun yenidən qurulması ilə bağlı görülən işlər göz qabağındadır. 2003-cü ildən bəri respublikamızın ərazisində 16 min kilometrə yaxın avtomobil yolu çəkilmişdir. Bu sahədə Neftçala rayonunda da xeyli iş görülmüşdür. Prezidentin müvafiq sərəncamlarına əsasən 2018-ci ildə 37 min nəfər əhalinin yaşadığı 21 kəndi birləşdirən 55 kilometrlik Şorkənd-Beştalı-Bankə-Şirvanlı, 44 min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən 47 kilometrlik Neftçala-Xolqaraqaşlı, 40 kilometrlik Salyan-Neftçala avtomobil yolu əsaslı, 2019-cu ildə isə 10 min əhalinin yaşadığı 4 kəndi əhatə edən 9 kilometrlik Boyat-Ballıcalı yolu cari təmir edilərək istifadəyə verilmişdir. Hazırda 10 mindən çox əhalinin məskunlaşdığı 4 kəndi və 1 qəsəbəni birləşdirən 9 kilometrlik Bankə-Mayak yolu çəkilir. Yolçəkənlər yolu nəzərdə tutulduğundan əvvəl istismara vermək üçün səylə çalışırlar.



Yeri gəlmişkən deyək ki, yol infrastrukturu baha başa gələn sahədir. Dövlət başçısı yolların çəkilişi və təmiri ilə bağlı hər dəfə büdcədən milyonlarla manat vəsait ayırır. Deməli, yolların qorunması hər bir kəsin vətəndaşlıq borcu olmalıdır. Yollar nə qədər keyfiyyətli çəkilərsə, mühafizə olunarsa, o qədər uzunömürlü olar və növbəti vəsaitlər yenə həmin yolların əsaslı və cari təmirinə deyil, həlli vacib olan digər sahələrə yönəldilər.

Neftçala rayon əhalisi bu gün sabaha böyük ümidlə baxır. Onlar inanırlar ki, dünyanın, eləcə də ölkəmizin başı üstünü almış koronavirus pandemiyası çəkilib gedəcək, insanlar rahat nəfəs alacaq, öz işləri ilə məşğul olacaqlar. Neftçalalılar da əmək cəbhəsində ürəklə, inamla çalışaraq yeni-yeni uğurlara imza atacaqlar. Rayonda yaranan mövcud durum, insanlar arasındakı yüksək əhvali-ruhiyyə də belə deməyə əsas verir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Unutsaq unudularıq

# İnsanı yaşadan əməlləridir

Həyatın qanunudur - insan doğulur, yaşayır və nəhayət, dünyadan köçür. Kimisi unudulur, kimisi də öz əməlləri ilə yaddaşlarda qalır. Tofiq Qazıyev də yaddaşlarda qalanlardandır. Bütün işıqlı ömrünü elmə, gənclərin savadlanmasına sərf edən, bu yolda acılı-şirinli günlər yaşayan görkəmli alim həm də ağıllı məsləhətləri ilə el ağsaqqalı səviyyəsinə yüksəlmişdi. Vaxtilə dərs dediyi tələbələri indi nəinki Azərbaycanda, eləcə də xarici ölkələrdə qazandıqları nailiyyətlərlə onun əməllərini uğurla davam etdirirlər.



Adı respublikamızın elmi-pedaqoji ictimaiyyətinə yaxşı məlum olan professor Tofiq Qazıyev 1920-ci ildə Samux rayonunda anadan olmuşdu. 80 ilə yaxın xoş günlərlə yanaşı, çətinliklərlə də dolu bir ömür yaşamışdı. Onun həyat və fəaliyyətində diqqəti çəkən məqamlar cəmiyyətdə tutduğu mövqe ilə yanaşı, haqq tərəfdarı olması, rastlaşdığı çətinliklər qarşısında aciz yox, mübariz dayanması idi.

1930-cu illərin repressiyaları Qazıyevlər ailəsindən də yan keçməmiş, onun qohum-əqrəbası 37-ci ilin cəza mexanizminin müxtəlif üsullarına məruz qalmışdı. Tofiq Qazıyevin atası İsa Çələbiyə yalnız ona görə dəyməmişdilər ki, kənddə hərf tanıyan, yazıb-oxumağı bacaran yeganə insan idi. Axı kolxoza bir nəfər də olsa savadlı adam lazım idi. Bununla belə, “şübhəli” Qazıyev soyadı onun üstünə qara kölgə salırdı. Digər tərəfdən də bəy nəslindən olan Mina xanım Zülqədərova ilə ailə həyatı qurması gənc Tofiqin bilavasitə ideologiya sahəsində, ictimai işlərdə çalışmasına mane olurdu.

Zaman dövrün adamlarını, həmçinin Tofiq Qazıyevi sanki qəsdən bir-birinin ardınca ağır sınaqlardan keçirirdi. 1937-ci ilin məngənəsindən qurtulan Tofiq 1938-ci ildə Gəncə Pedaqoji İnstitutuna daxil oldu. İkinci kursa keçəndə hərbi xidmətə, özü də birbaşa Fin müharibəsinə göndərildi. Sonra Böyük Vətən müharibəsi, ağır döyüşlər, min bir əzab-əziyyət... 1944-cü ildə Vitebsk şəhəri uğrunda gedən döyüşlərdə sağ dizindən ağır yaralanan Tofiq II qrup əlil kimi ordudan tərxis olundu. Müharibədən əvvəl yarımçıq qalan təhsilini başa çatdırdı. Bilik və bacarığı nəzərə alınaraq elmi şuranın qərarı ilə aspiranturada saxlanıldı. Beləliklə, doğma institutun ictimai fənlər kafedrasında işə başladı. Elmə, biliyə yüksək dəyər verən Tofiq Qazıyev 1956-cı ildə namizədlik, 1962-ci ildə doktorluq dissertasiyalarını müdafiə etdi.

Həyatını bütünlüklə xalqına, dövlətinə xidmətə və gənc nəslin maarifləndirilməsinə, yüksək ixtisaslı kadr kimi yetişməsinə həsr edən görkəmli alim Tofiq Qazıyev həmçinin 130-dan çox elmi əsərin, “Bitkilərin həyatı”, “Bitki fiziologiyası” adlı dərs vəsaitlərinin, ümumilikdə, 14 kitabın müəllifidir.

Alimin yazdığı “Pambığın nektarlıq problemi və bal arılarının pambığın məhsuldarlığının artırılmasında rolu” monoqrafiyası görkəmli elm adamları tərəfindən yüksək nailiyyət kimi qiymətləndirilərək 1968-ci ildə İngiltərədə, Amerika Birləşmiş Ştatlarında çap olunur. Professor Tofiq Qazıyev həmin monoqrafiya ilə əlaqədar bir sıra dünya alimlərindən, elmi-tədqiqat institutlarından məktublar alır. Məqalələri İspaniya, Çexoslovakiya, Rumıniya və ABŞ-da keçirilən elmi konfransların çap olunan toplularında dərc edilir. Ümumiyyətlə, alimin 17 əsəri dünyanın müxtəlif ölkələrinin dillərinə tərcümə olunmuşdur.

Tofiq Qazıyevi daha çox elmin qlobal məsələləri maraqlandırırdı. Onu bir alim kimi fərqləndirən də bu idi. “Elm milli ola bilməz”, - deyən Tofiq müəllim tədqiq etdiyi sahələrdə bu prinsipi əsas götürürdü. Elə buna görə də onun elmi araşdırmaları müxtəlif sahələri əhatə edirdi. Uzun illərdir ki, alimin müraciət etdiyi mövzu - pambıq bitkilərinin nektarlıq problemləri və onun məhsuldarlığının artırılmasında arıların rolu mövzusu dünya miqyasında öyrənilir. Dünya alimləri Tofiq Qazıyevin bu ideyası və aldığı nəticələri yüksək qiymətləndirirlər. SSRİ Dövlət mükafatı laureatı, novatorçu alim İ.A.Xalifman 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasına göndərdiyi məktubda yazırdı: “Akademik Press” London - Nyu York nəşriyyatının 1970-ci ildə buraxdığı Mak Oreqonun “Bitkilərin həşəratla tozlanması” adlı böyük bir kitabında Tofiq Qazıyevin nəşr olunmuş əsərlərinə müraciət edilib. Alimin apardığı bu tədqiqat işlərinin nəticələrinin dünya pambıqçılıq elminə töhfələr verəcəyinə əminlik ifadə edilmişdir.”

Əsərin dünya elminə verdiyi töhfələrlə bağlı İngiltərə, Fransa, Avstriya, İsveçrə alimlərindən təşəkkür məktubları alan professor Tofiq Qazıyev bir çox ölkələrdə, o cümlədən İspaniya, Çexoslovakiya, Rumıniya və ABŞ-da keçirilən beynəlxalq konfranslara dəvət olunmuş və maraqlı məruzələrlə çıxış etmişdir.

Söz düşəndə görkəmli alim deyirdi ki, insan çətinliklərə sinə gərməyi, haqsızlıqdan sınmamağı, özünü təsdiq etməyi bacarmalıdır. O, 50 ildən çox fəaliyyət göstərdiyi Gəncə Dövlət Pedaqoji İnstitutunda (indiki Gəncə Dövlət Universiteti) müəllimlikdən başlayaraq kafedra müdiri, fakültə dekanı, prorektor vəzifəsinədək yüksəlmişdi. 1971-1972-ci illərdə rektor əvəzi işləmişdir.

Professor Tofiq Qazıyevin yaradıcılıq fəaliyyətində gənc nəslin layiqli vətəndaş və yüksək səviyyəli mütəxəssis kimi yetişməsi, elmi-pedaqoji kadrların hazırlığı həmişə xüsusi yer tutub. 40 ilə yaxın institutun botanika kafedrasına rəhbərlik etmiş görkəmli elm fədaisi gənclərin özünün layiqli davamçıları kimi peşəkar səviyyədə hazırlanmasına daim qayğı ilə yanaşmışdır.

Tofiq Qazıyev elmi işlərlə yanaşı, şəhərin ictimai-siyasi həyatında da fəallıq göstərirdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində ağır mənəvi-ictimai mühit, elmə vurulan zərbə, ziyalıların sanki qəsdən gözdən salınması Tofiq Qazıyevin mübariz əzmini yenidən alovlandırmışdı. O, Ulu Öndər Heydər Əliyevi xalqın xilaskarı kimi yenidən hakimiyyətə dəvət etmək çağırışları səsləndirənlərin arasında idi. Artıq saç-saqqalının ağarmasına baxmayaraq, nadan, yalnız öz mənafeyini güdən şəhər rəhbərliyindən çəkinmirdi və Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatının yaradılmasında fəallıq göstərdi. O, əsl vətəndaş mövqeyi nümayiş etdirərək əqidəsinə sadiq qalır və ictimai-siyasi proseslərdə fəal iştirak edirdi.

Yüksək prinsipiallığı, işgüzarlığı, insani keyfiyyətləri və siyasi savadına görə xalq arasında böyük nüfuza malik olan alimin xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. Tofiq Qazıyev “Şərəf nişanı” ordeni, çoxlu sayda medallarla, eləcə də diplom və fəxri fərmanlarla təltif olunmuşdur.

Görkəmli alimin ailəsində 4 övlad böyüyüb. Onlardan biri - Arif Qazıyev atasının yolunu uğurla davam etdirir. 1954-cü ildə anadan olan Arif orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Biologiya fakültəsinə daxil olub. 1977-ci ildə oranı bitirən Arif Qazıyev aspiranturaya daxil olmuş, 1986-cı ildə Moskvada K.Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasında namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi adını almışdır. Hazırda Arif Qazıyev ADAU-nun dosentidir. Söhbət zamanı bildirdi ki, atasının yetirmələri heç zaman onu unutmurlar. Hər il alimin doğum günündə onu yad edərək teleqramlar göndərirlər. Elə indi də belə teleqramların ardı-arası kəsilmir. Axı bu il may ayının 20-də Tofiq Qazıyevin anadan olmasının 100 ili tamam olacaq.

Bu qeydləri qələmə alarkən Ulu Öndər Heydər Əliyevin bir fikrini xatırladım. Ümummilli Lider deyirdi: “O insanlar ki, sədaqətlidir, saf mənəviyyatlarla, amallarla yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçirilməsinə çalışırlar - belə adamlar həmişə mənim silahdaşımdır, mənimlə birdirlər və mən də bu adamlarla birlikdəyəm.”

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## “Prior Leasing” ASC-nin səhmdarlarının nəzərinə

30 iyun 2020-ci il tarixdə “Prior Leasing” ASC-nin səhmdarlarının Ümumi Yığıncağı keçiriləcək. Yığıncağın gündəliyinə daxil olan məsələ:

1. 2019-cu ilin maliyyə nəticələri.

Gündəlikdə olan məsələlərə dair materiallarla “Prior Leasing” ASC-yə müraciət etməklə tanış olmaq olar.

Yığıncaq Bakı şəhəri, Nobel prospekti, 25E ünvanında “Prior Leasing” ASC-nin ofisində keçiriləcək.

***“Prior Leasing” ASC-nin rəhbərliyi***

## B İ L D İ R İ Ş

## Lənkəran Dövlət Universiteti mətbəə məhsullarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20.05.2020-ci il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50.**

***Tender komissiyası***

# Beynəlxalq aləm

## BMT: “Pandemiya qlobal iqtisadi tənəzzülə səbəb olacaq”



Koronavirus pandemiyası fonunda dünya iqtisadiyyatı 2020-ci ildə 3,2 faiz azalacaq. Bu fikir BMT-nin “Dünya iqtisadiyyatının vəziyyəti və perspektivləri” hesabatında yer almışdır.

Cari ildə qlobal bazarda tələbatın kəskin şəkildə azalması və beynəlxalq təchizat zəncirlərində fasilələr yaranması üzündən qlobal ticarətin, demək olar ki, 15 faiz azalması proqnozlaşdırılır. BMT-nin gözləntisinə görə, yaxın iki ildə pandemiya qlobal iqtisadiyyatı 8,5 trilyon dollar azaldacaq və bununla əvvəlki dörd ilin bütün nailiyyətlərini heçə endirəcək. Beynəlxalq təşkilat qeyd edir ki, bu, 1930-cu illər böhranından bəri dünya iqtisadiyyatında ən genişmiqyaslı tənəzzül olacaq.

Hesabatda deyilir ki, 2020-ci ildə təxminən 34,3 milyon nəfər koronavirus üzündən ifrat yoxsulluq həddindən aşağıda olacaq. Sənədin müəllifləri əlavə etmişlər ki, bu göstəricinin yarıdan çoxu Afrika ölkələrinin payına düşəcək.

## Çin ABŞ-ın “koronavirus” sanksiyalarını cavabsız qoymayacaq



Çin Vaşinqtonun Pekinə qarşı məhdudiyyətlər tətbiq edəcəyi təqdirdə sanksiya cavabı verməyə hazırdır. İki dövlət arasında münaqişə ABŞ rəsmilərinin koronavirus pandemiyasına görə Çinin məsuliyyət daşıması iddialarından qaynaqlanır.

“The Global Times” qəzeti yazır ki, Çinin ABŞ-ın dörd rəsmisinə və iki hüquqi şəxsə qarşı sanksiyalar tətbiq etməsi gözlənilir. “Qara siyahı”ya Çin hökumətinə qarşı məhkəmədə “koronavirus” iddiası qaldırmış Missuri ştatının baş prokuroru Erik Şmitt düşə bilər.

Bundan əvvəl ABŞ Prezidenti Donald Tramp bildirmişdi ki, Çinə qarşı sanksiyalar haqqında qanun layihəsi ilə tanış olmağa hazırdır. “COVID-19-a görə məsuliyyət haqqında” sənədi respublikaçı senator Lindsi Qrem hazırlamışdır. Çin koronavirusun mənşəyinin araşdırılması məsələsində ABŞ ilə əməkdaşlıqdan imtina edərsə, sanksiyalar tətbiq oluna bilər.

## Əfqanıstanın şərqində terror aktı: 5 ölü



Əfqanıstanın şərqində, Paktiya əyalətində terror aktı törədilmişdir. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Milli ordunun nümayəndəsi İmal Mumənd agentliyə bildirmişdir ki, terrorçular Qardez şəhərində hərbi təlim mərkəzinin yaxınlığında minalanmış avtomobil partlatmışlar. İlkin məlumata görə, terror aktı nəticəsində 5 mülki şəxs həlak olmuş, 19 nəfər, o cümlədən 5 hərbçi yaralanmışdır.

Hadisəyə görə məsuliyyəti hələ ki heç bir qruplaşma üzərinə götürməmişdir.

## Monteneqro polisi etirazçıları gözyaşardıcı qazla dağıtdı



Monteneqronun Nikşiç və Plevlya şəhərlərində polis 8 din xadiminin həbsinə etiraz edən nümayişçiləri gözyaşardıcı qazla dağıtmışdır. Bu barədə yerli “Vijesti” qəzeti xəbər verir.

Məlumata görə, din xadimləri Nikşiçdə Müqəddəs Vasili Ostrojski bayramı zamanı möminlərin yığıncağını təşkil etmişdilər, hərçənd koronavirusun yayılması üzündən ölkədə kütləvi tədbirlər keçirmək qadağandır. Yerli sakinlər etiraz aksiyasına çıxaraq tutulanların dərhal sərbəst buraxılmasını tələb etmişdilər.

Nümayişçilər polisi daşa basmışlar. Nəticədə onlarca asayiş keşikçisi və etirazçı, o cümlədən bir uşaq yaralanmışdır.

Hüquq mühafizə orqanlarından bildirmişlər ki, etirazçılar daş, butulka və pirotexniki vasitələrlə silahlanmış, üzlərinə maska taxmışdılar. Polis əməkdaşları nümayişçiləri dağıtmaq üçün xüsusi vasitələrdən istifadə etmişlər.

## Yəməndə qiyamçılar 14 məhbusu sərbəst buraxdılar



“Ənsar Allah” qiyamçı hərəkatı (hövsilər) Yəmənin qərbində həbsxanalarda saxlanılan 14 nəfərin sərbəst buraxıldığını elan etmişdir. Bu barədə hövsi administrasiyasının yanında Əsirlərin İşləri Komitəsinin rəhbəri Əbdülqadir Mürtəz məlumat vermişdir.

Mürtəzin dediyinə görə, qərar Yəmən hökumətinin nümayəndələri ilə danışıqların yekunlarına görə qəbul olunmuşdur.

Məsələ ilə əlaqədar daha ətraflı məlumat verilməmişdir. Yəmən hökuməti də məhbusların sərbəst buraxılmasını şərh etməmişdir.

Bundan əvvəl də hövsilərlə hökumət arasında bağlanmış müqavilələr çərçivəsində məhbus mübadiləsi baş vermişdir. Martın 20-də BMT-nin Yəmən üzrə xüsusi nümayəndəsi Martin Qriffits qarşıdurma tərəflərini yeni tip koronavirusun yayılması fonunda məhbusların sağlamlığına təhlükəni aradan qaldırmaq üçün təcili tədbirlər görməyə çağırmışdı.

# “Azercell” mobil tətbiqin yeni versiyasını təqdim edir

İstifadəçilərə ən yaxşı müştəri təcrübəsi bəxş etmək məqsədilə “Azercell Telekom” MMC tərəfindən işlənib hazırlanmış “Kabinetim” mobil tətbiqinin yeni versiyası abunəçilərin ixtiyarına verildi. Artıq abunəçilərin işini daha da asanlaşdıran, bəzi funksiyaları əlçatan edən yeni imkanlar vasitəsilə tətbiq daha rahat, funksional və rəqəmsal xüsusiyyətlərə malikdir.

Belə ki, “Kabinetim” mobil tətbiqinin yeni versiyasında abunəçi istifadə etdiyi nömrənin rəsmi sahibini asanlıqla öyrənə bilər. Bunun üçün sadəcə proqramdakı kənar menyuya daxil olmaq kifayətdir. Digər yenilik “Mənim Profilim” bölməsində edilib. Bu bölmədə imza sahibinin adı və soyadı ilə yanaşı, əlavə əlaqə nömrəsi və elektron ünvanın qeyd olunması üçün imkan yaradılıb. Sözügedən hər iki funksiyadan yalnız fiziki şəxslər yararlana biləcəklər.

Önəmli yeniliklərdən biri də Mobil Ödəmə sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Belə ki, fakturasız xətt istifadəçiləri artıq öz nömrəsinə aid kabinetdən digər “Azercell” nömrəsinə balans köçürə bilər. Bundan əlavə, yenilənmiş “Kabinetim” mobil tətbiqində “İnternet” və “Balansı artır” bölmələrindən istifadəçi təcrübəsi də təkmilləşdirilib.

Qeyd edək ki, “Kabinetim” mobil tətbiqinin önəmli xüsusiyyətlərindən biri də odur ki, tətbiqdən istifadə zamanı meqabaytlar xərclənmir. Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan çoxfunksional “Kabinetim” tətbiqini “App Store” və ya “PlayStore”dan yükləmək mümkündür. Tətbiq avtomatik yenilənməyibsə, yükləmə üçün bit.ly/Kabinetim keçidindən istifadə etmək olar.

Müasir texnologiyalar və rəqəmsal həlləri təqdim edən “Kabinetim” tətbiqi istifadəçilərə nömrə xəttini şəxsən idarə etmək, balansı nəzarətdə saxlayıb artırmaq, internet paketləri və rominq internet paketlərini aktivləşdirmək, tarif paketini dəyişmək və bir çox başqa imkanlar təqdim edir. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən “Kabinetim” tətbiqi üzərindən onlayn çat vasitəsilə “Azercell” müştəri xidmətlərinə müraciət etmək və QR skan ilə xidmətlərə qoşulmaq da mümkündür.

# Erməni daşnaklarının Hitlerə və Holokosta rəğbətini ifşa edən sənəd aşkarlanıb

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən yeni tarixi sənəd aşkar edilib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildirilib ki, 1945-ci il 4 may tarixində ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frank Hook erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəsləmələri, irqçi meyilləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasına təqdim edib. Həmin məqalə ABŞ Konqresinin qeydiyyat kitabçasına daxil edilərək ABŞ hökuməti tərəfindən dərc olunub.

Məqalədə daşnaklar uzun müddət terrorçu-faşist aktları həyata keçirən və yaxşı təşkilatlanmış “quldur dəstəsi” adlandırılır. Daşnakların yaranma tarixindən bəhs edilən məqalədə onların terrorizmi əsas siyasi alət kimi mənimsədikləri bildirilir.

Erməni daşnaklarının ABŞ-da “Daşnaksütyun” partiyasına ianə köçürməkdən imtina edən və ya onların radikal ideologiyasını paylaşmayan ermənilərə qarşı terror aktları törətdikləri qeyd olunan məqalədə bu səpkidə Amerikadakı Erməni Kilsəsinin rəhbəri arxiyepiskop Leon Tourianın 1933-cü ildə Nyu-Yorkdakı kilsədə Milad bayramı ibadəti zamanı daşnak terrorçular tərəfindən qətlə yetirildiyi diqqətə çatdırır.

Daşnakların nasizmə rəğbət bəslədiklərinin vurğulandığı məqalədə onların ABŞ-ın Boston şəhərində nəşr edilən “Hairenik” qəzetinin 1936-cı il 17 sentyabr nömrəsinə istinad edərək, daşnakların hitlerizmi və faşizmi “bəşəriyyətə hədiyyə” və “Almaniya və İtaliyaya yeni həyat verən uğurlu sistemlər” hesab etdikləri qeyd olunur.

Məqalədə daha sonra daşnakların kəskin antisemit olduqları vurğulanır, onların bu mövzuda çoxlu məqalələr dərc etdirdikləri bildirilir və “Hairenik” qəzetinin 1936-cı ilin avqust sayında daşnakların Holokostu dəstəklədiyini göstərən aşağıdakı sitat təqdim olunur. Sitatda deyilir: “Bu zəhərli elementlər xroniki xəstəlik kimi dərin kök saldıqları üçün bəzən onların kökünü kəsmək çətindir. İnsanlar üçün qeyri-adi üsulla onların kökünü kəsmək zəruri olduqda bu cəhd və üsullar inqilabi hesab edilir. Cərrahiyyə əməliyyatı zamanı isə qanın axması normaldır Bu cür şəraitlərdə diktatorluq xilaskar rolunu oynayır”. Göründüyü kimi, erməni daşnakları altı milyon yəhudinin nasistlər tərəfindən öldürülməsini “zəhərli elementlərin kökünü kəsmək üçün cərrahiyyə əməliyyatı” adlandırır.

Sənəddə, həmçinin nasistlərə xidmət etmiş erməni Qaregin Njde haqqında məlumat verilərək, onun erməni irqçiliyini təbliğ edən Tseqakronizm nəzəriyyəsinin əsasını qoyduğunu və əsasən erməni gənclər arasında bu ideyanı yaydığını, habelə onun Hitlerin irqçi ideyalarını tərənnüm etdiyini və bu ideyaları özü üçün əsas götürdüyünü vurğulayır. Məqalədə, həmçinin Njde və onun erməni daşnak tərəfdaşlarının erməni gənclərinə bu irqçi ideyaları mənimsəmələri və bu ideyalara sadiq qalmaları ilə bağlı çağırışı özündə ehtiva edən və “Hairenik Weekly” qəzetinin 1935-ci il 11 yanvar sayında dərc edilmiş müraciəti təqdim olunur.

Qeyd edək ki, ABŞ-da Azərbaycana qarşı məkrli fəaliyyət göstərən əsas erməni lobbi təşkilatı Amerika Erməniləri Milli Komitəsi - daşnak təşkilatıdır.

# Paşinyan ailəsinin faşizmlə birbaşa əlaqəsi ifşa olundu

***Əvvəli 1-ci səh.***

Bunlar bir daha təsdiq edir ki, Ermənistanda faşizm ideologiyası, etnik təmizləmə və terrorizm dövlət siyasətinə çevrilib.

Bütün bunlar beynəlxalq ekspertlər tərəfindən də kəskin şəkildə qınanır. Bu xüsusda rusiyalı ekspert Dmitri Verxoturovun açıqlamaları xüsusi diqqət cəlb edir: “Nikol Paşinyan 9 may ərəfəsində öz babası - Nikol Paşinyan barədə məlumatlar paylaşıb və onun Böyük Vətən müharibəsində iştirak etmiş qəhrəman olduğunu deyib. Amma tezliklə bir çox saytlarda dərc olunan sənədlər əsasında məlum olub ki, baş nazirin babası almanlar tərəfində döyüşüb, başqa sözlə, düşmən tərəfə keçib və nəticədə həlak olub. Dəfn kağızında Nikol Paşinyanın tərcümeyi-halı ilə bağlı bir çox faktlar əks olunub. Kağızda göstərilib ki, o, 29 sentyabr 1943-cü ildə həlak olub, ölüm səbəbi qarın nahiyəsində olan güllə yarasıdır. 1943-cü ildə erməni legionu Vermaxta tabe olurdu və onun batalyonları SS strukturlarında təlim keçirdi. Legion əsasən erməni millətinə mənsub hərbi əsirlərdən təşkil olunmuşdu. Əksər vaxtlarda bu, könüllü əsaslarda təşkil olunurdu. Amma bu, legioner Nikol Paşinyana şamil edilmir. Dəfn kağızına əsasən demək olar ki, o, könüllü şəkildə döyüşüb və xüsusi canfəşanlıqla özünü göstərib”.

Digər ekspert İqor Korotçenko da məsələyə maraqlı prizmadan nəzər salır. O, ermənilərdən fərqli olaraq Azərbaycanın faşizm üzərində qələbəyə mühüm töhfələr verdiyini bildirir. Ekspertin sözlərinə görə, Qafqaz uğrunda döyüş 1942-1943-cü illərin ən mühüm hadisəsi idi, həmin dövrdə sovet tərəfinin hədəfi Vermaxt qüvvələrinin Qafqaza soxulmasına yol verməməkdən ibarət idi: “Hitlerin əsas strateji məqsədi - Azərbaycanı, Bakını tutmaq, Sovet Azərbaycanının neft mədənlərini Hitler Almaniyasının nəzarəti altına keçirmək idi. Bu niyyət baş tutmadı. Abver xətti ilə, Almaniyanın başqa xüsusi xidmət orqanlarının xətti ilə Azərbaycana çoxsaylı təxribat qrupları göndərilirdi. Mən Azərbaycan SSR-in dövlət təhlükəsizliyi orqanlarının əla işini xüsusi qeyd etmək istərdim. Onlar respublikanın ərazisində heç bir ciddi terror aktı törədilməsinə imkan verməyib və beləliklə, bizim ümumi qələbəmizə müəyyən töhfə veriblər”.

İqor Korotçenko daha sonra bildirib ki, bu gün Azərbaycan neft sərvətlərini artırır, neftçıxarma və neft emalı sənayesini inkişaf etdirir: “Azərbaycan dünyada strateji və enerji sabitliyinə həlledici töhfə verir. Rusiya Azərbaycana postsovet məkanında özünün həmişə dəqiq, aydın və anlaşılan siyasət yürüdən strateji əhəmiyyətli tərəfdaşı kimi baxır. Azərbaycan dünyada və postsovet məkanında nasizmin qəhrəmanlaşdırılmasının hər hansı təzahürlərini həmişə qətiyyətlə pisləyib. Bu səbəbdən biz Böyük Vətən müharibəsi ilə bağlı xatirələrin qorunmasına yönəlmiş dəqiq və ardıcıl siyasətə görə bütün Rusiya xalqı adından Azərbaycana, Prezident İlham Əliyevə minnətdarlığımızı bildiririk. Biz buna görə, sabitliyin və əlbəttə, Rusiya ilə dostluğun möhkəmlədilməsi üçün Azərbaycanın göstərdiyi səylərə görə Azərbaycan xalqına və onun Prezidentinə təşəkkür edirik”.

İndinin özündə də Azərbaycan və Ermənistanın faşizmə yanaşması fərqlidir. Azərbaycan bunu pislədiyi halda Ermənistan faşizmi ideologiya olaraq seçməkdən çəkinmir. Bu, həm də onu sübut edir ki, Ermənistanın baş naziri birbaşa babasının və soyqırımı ideologiyasının erməni banilərinin mirasını davam etdirir. Ermənistanla yanaşı, müxtəlif ölkələrə səpələnmiş erməni diasporu da Njdenin timsalında faşizmin qəhrəmanlaşdırılması istiqamətində çalışır, müxtəlif şəhərlərdə nasist cəllada abidələr ucaldırlar. Dünyanın artıq buna “dur” deməsinin zamanı çatıb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluğa Dəstək Layihəsi üzrə iş elanı

**Vəzifə:** LİQ Monitorinq və Qiymətləndirmə üzrə mütəxəssis
**Layihə/İdarə:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Məşğulluğa Dəstək Layihəsi

**Layihə İcra Qrupu:**
LİQ Dünya Bankının fidusiar və hesabatvermə tələblərinə uyğun olaraq, satınalmalar, maliyyə idarəetməsi, sosial və ətraf mühitlə bağlı tələblər, eləcə də üç komponentin monitorinqi və onların icrası ilə bağlı mütəmadi hesabatvermə üçün məsul olacaq.

**Vəzifə və tapşırıqlar:**
" Dünya Bankı və ƏƏSMN-nə Layihənin İnkişaf Məqsədi göstəriciləri üzrə əldə edilmiş nəticələr barədə müntəzəm olaraq məlumatın verilməsi. Layihənin həyata keçirilməsinin monitorinqi üçün lazımi məlumatları əldə etmək üçün icraedici bölmələrlə əlaqə yaratmaq;

- Layihə nəticələri çərçivəsini mütəmadi olaraq yeniləmək; ildə iki dəfə müxtəlif mənbələrdən lazımi məlumatları toplamaq;
- Maliyyələşdirmə Sazişinə, Layihə Əməliyyat Təlimatına uyğun olaraq layihənin icrasına nəzarət etmək və Layihənin Monitorinqi və Qiymətləndirmə Planına ciddi əməl etmək;
- Layihə monitorinqi üçün istifadə olunan məlumatların keyfiyyətini və etibarlılığını təmin etmək;
- Fəaliyyətlərin gedişatının Texniki Tapşırığa, layihə məqsədlərinə və iş planlarına uyğunluğunu qiymətləndirmək üçün layihənin əhatə etdiyi ərazilərə baxış keçirmək;
- Dünya Bankı üçün ingilis dilində və məqbul bir formatda müntəzəm olaraq Layihə İcraatı Hesabatının hazırlanmasında iştirak etmək. Hesabatda digər aspektlər ilə yanaşı, qarşıya qoyulmuş məqsədlərə münasibətdə layihənin həyata keçirilməsində irəliləyişlər, hesabat dövrü ərzində rastlaşan problemlər və bu məsələlərin həll edilməsi üçün atılan və təklif olunan addımlar, Maliyyələşdirmə Sazişinə, LİM-ə uyğunluğunu təmin etmək və növbəti hesabat dövrü üçün nəzərdə tutulmuş fəaliyyətlər;
- Benefisiar sorğularının aparılması ilə bağlı xidmətlər üzrə texniki tapşırıqların layihəsinin hazırlanmasında köməklik göstərmək;
- Layihənin son altı ayı ərzində Layihənin başa çatması haqqında hesabat üzrə aylıq məlumatın verilməsi;
- Layihənin monitorinqi və qiymətləndirmə fəaliyyətlərində iştirak edən digər əsas iştirakçılar ilə əlaqələndirmək, Layihə ilə əlaqəli komponentlərin icrası ilə əlaqədar tədqiqatlar da daxil olmaqla Nazirlik və Dünya Bankının müvafiq tapşırıqlarının icrasını təmin etmək;
- Layihə fəaliyyətinin planlaşdırılmasında LİQ koordinatoruna köməklik göstərmək;
- Layihə Əməliyyat Təlimatının yenilənməsinə dəstək olmaq.

**LİQ Monitorinq və Qiymətləndirmə mütəxəssisi vəzifəsinə uyğun namizəd olmaq üçün minimum tələblər:**

- Azərbaycan vətəndaşı, Azərbaycan və ingilis dillərində sərbəst ünsiyyət qurma bacarığı və rus dilində bilik səviyyəsi;
- Sosial elmlər, sosiologiya, sosial iş və ya digər müvafiq sosial intizam sahəsində bakalavr dərəcəsi;
- Müvafiq sahə üzrə ən azı 10 illik təcrübə;
- Layihələrdə, o cümlədən gender həssaslığı, həssas qrupların daxil edilməsi, maraqlı tərəflərlə məsləhətləşmələr, vətəndaşların cəlb edilməsi və şikayətlərin aradan qaldırılması məsələlərində sosial davamlılıq üzrə təcrübə;
- Keyfiyyət yönümlü tədqiqat metodologiyaları da daxil olmaqla sosial təhlil hazırlamaq və aparmaq üzrə təcrübə;
- Beynəlxalq Maliyyə İnstitutlarının sosial təminat siyasətində və layihənin sosial təminat tələblərinə uyğunluğunu təmin edilməsi üzrə təcrübə;
- Sosial müdafiə üzrə qanunvericilik bilikləri;
- Yüksək təşkilatçılıq və ünsiyyət bacarığı.

Məsləhətçi, Dünya Bankı Satınalmalar Qaydalarında göstərilən Fərdi Məsləhətçi seçmə metoduna uyğun olaraq seçiləcəkdir.

**Namizədlər tərcümeyi-hallarını aşağıdakı ünvana göndərməlidirlər:**
**E-mail: asep.huseyn@gmail.com**
**Müraciət üçün son tarix: 22 may, 2020**

Qeyd:
- Göndərilən elektron məktubun başlığında Layihə və iş elanının adı qeyd edilməlidir
- Ancaq seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluğa Dəstək Layihəsi üzrə iş elanı

**Vəzifə:** LİQ Ətraf mühit üzrə mütəxəssis
**Layihə/İdarə:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Məşğulluğa Dəstək Layihəsi

**Layihə İcra Qrupu:**

LİQ Dünya Bankının fidusiar və hesabatvermə tələblərinə uyğun olaraq, satınalmalar, maliyyə idarəetməsi, sosial və ətraf mühitlə bağlı tələblər, eləcə də üç komponentin monitorinqi və onların icrası ilə bağlı mütəmadi hesabatvermə üçün məsul olacaq.

**Vəzifə və tapşırıqlar:**

- LƏS hazırlanması və yenilənməsi üçün təkliflərin hazırlanması;
- Dünya Bankının müvafiq işçiləri və Layihənin Direktoru/LİQ koordinatoruna layihənin gedişatı və təxirəsalınmaz məsələlər üzrə mütəmadi məlumatların verilməsi;
- ƏSİP və ƏSİÇ sənədlərin vaxtlı-vaxtında və uyğun şəkildə icra olunması;
- Alt-layihələrin əsas ekoloji meyarları, onların ətraf mühitə təsiri və yumşaltma təsirlərin icrası üçün ekoloji monitorinqin keçirilməsi;
- ƏSİP və ƏSİÇ icrası ilə əlaqədar bütün tədbirlərin görülməsi, o cümlədən: (i) ƏMTQ icrası üzrə prosedurların həyata keçirilməsi Biznes İnkişaf Xidmətçilərdən Təşkilatlar ilə ekoloji meyarların istifadə edilməsi; (ii) Qrant təkliflərin ekoloji və sosial nöqteyi nəzərindən qiymətləndirilməsi; (iii) ETSN-nin səlahiyyətli əməkdaşları ilə əməkdaşlığın yaranması (iv) altlayihələrin icrası zamanı ƏSİP və ƏSİÇ siyahıları tələblərin düzgün icrasının təmin edilməsi; (v) şikayətlərə baxılması və layihənin maraqlı tərəfləri və ictimaiyyətin rəylərinin alınması; (v) ƏSİP-da nəzərdə tutulan ekoloji mühafizə və yumşaltma tədbirlərinin nəzarət edilməsi (tək və ya Ekoloji Ekspertiza ilə birlikdə); (vi) ekoloji təsirlərin ümumi monitorinqi alətlərin icrası; və (vii) ekoloji təsirlərin icrası və yumşaltma tədbirlərin təhlil edilməsi və onların minimuma endirlməsi üçün təkliflərin hazırlanması;
- Hər il üzrə illik iş planların hazırlanması və həmçinin rüblük planların tələb olunduğu təqdirdə tərtib edilməsi;
- Bankın nəzarət missiyalarında iştirak etmək və müvafiq tədbirlərin görülməsi;
- Layihənin digər fəaliyyətləri dəstək verilməsi üçün LİQ digər əməkdaşları ilə işləmək;
- Layihənin nəticələri çərçivəsinin yenilənməsinə tövsiyələrin verilməsi;
- Layihənin icra hesabatlarının hazırlanması və digər layihə hesabatlarının tələb olduğu təqdirdə təqdim edilməsi.

**LİQ Ətraf mühit üzrə mütəxəssisi vəzifəsinə uyğun namizəd olmaq üçün minimum tələblər:**

- Azərbaycan vətəndaşı, Azərbaycan və ingilis dillərində sərbəst ünsiyyət qurma bacarığı və rus dilində bilik səviyyəsi;
- Ekologiya və ya digər uyğun sahələr üzrə universitet təhsili;
- Dünya Bankı və digər beynəlxalq layihələrin planlaşdırılması və həyata keçirilməsində ən azı 10 illik təcrübə;
- Çoxsahəli mütəxəssis heyətlərində iştirakı təcrübəsi;
- Azərbaycanın ekoloji qanunvericiliyi və ƏMTQ prosedurları üzrə biliklər;
- ƏSİP və ƏSİÇ sənədlərinin hazırlanması üzrə təcrübəsi;
- Azərbaycanda cari ekoloji vəziyyəti, hazırkı siyasətlər, regional çağırışlar və müvafiq qurumlar barədə tanış olması;
- Kompüter bilikləri.

Məsləhətçi, Dünya Bankı Satınalmalar Qaydalarında göstərilən Fərdi Məsləhətçi seçmə metoduna uyğun olaraq seçiləcəkdir.

**Namizədlər tərcümeyi-hallarını aşağıdakı ünvana göndərməlidirlər:**

**E-mail: asep.huseyn@gmail.com**
**Müraciət üçün son tarix: 22 may, 2020**

Qeyd:
- Göndərilən elektron məktubun başlığında Layihə və iş elanının adı qeyd edilməlidir.
- Ancaq seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluğa Dəstək Layihəsi üzrə iş elanı

**Vəzifə:** LİQ Sosial məsələlər üzrə mütəxəssis
**Layihə/İdarə:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Məşğulluğa Dəstək Layihəsi

**Layihə İcra Qrupu:**
LİQ Dünya Bankının fidusiar və hesabatvermə tələblərinə uyğun olaraq, satınalmalar, maliyyə idarəetməsi, sosial və ətraf mühitlə bağlı tələblər, eləcə də üç komponentin monitorinqi və onların icrası ilə bağlı mütəmadi hesabatvermə üçün məsul olacaq.

**Vəzifə və tapşırıqlar:**
- Layihə və onun podratçıları və icraçıları tərəfindən Layihənin Ətraf Mühit və Sosial İdarəetmə Çərçivəsi və Yenidən Məskunlaşma Siyasəti üzrə çərçivə sənədi ilə uyğunluğuna nəzarət etmək;
- Gender həssaslığı, həssas qrupların Layihəyə daxil edilməsi, maraqlı tərəflərin cəlb edilməsi və sosial təhlil ilə əlaqəli layihə fəaliyyətlərinə və siyasətlərinə nəzarət etmək;
- Potensial mənfi sosial təsirləri minimuma endirilməsinə və Layihənin potensial müsbət faydalarının artırılmasına, o cümlədən Layihə Əməliyyat Təlimatının müvafiq bölmələrinin işlənib hazırlanması və həyata keçirilmə hallərinin təşviqi;
- Layihə fəaliyyətləri, sosial təminat məsələləri və potensial sosial təminat təsirləri ilə bağlı məsələlər barədə Layihə Təsirinə məruz qalan insanlarla və maraqlı tərəflərin məsləhətlərin aparılmasına rəhbərlik etmək;
- Sosial təsirləri qiymətləndirmək və podratçıların və icraçıların hesabatlarında verilmiş sosial monitorinq məlumatlarını, o cümlədən foto sənədlərini lazımi qaydada yoxlamaq üçün layihə sahələrinə mütəmadi olaraq səfərlər etmək;
- ƏƏSMN, Dünya Bankı və yerli icra orqanları tərəfindən tələb olunacaq sənədlərin asanlıqla təmin edilməsinə imkan verən sosial nəzarət sənədlərinin qeydiyyatının aparılması;
- ƏƏSMN üçün müntəzəm təhlükəsizlik tədbirlərinin monitorinqi hesabatlarının hazırlanması, o cümlədən Dünya Bankına təqdim olunan layihənin icra hesabatlarının sosial təminat, gender həssaslığı və faydalananların cəlb edilməsi üzrə hesabatların hazırlanması;
- ƏƏSMN və layihə tərəfdaşlarına sosial məsələlər və sosial təminatlar üzrə təlim və potensialın artırılması üzrə təlimlərin keçirilməsi.

**LİQ Sosial məsələlər üzrə mütəxəssisi vəzifəsinə uyğun namizəd olmaq üçün minimum tələblər:**
- Azərbaycan vətəndaşı, Azərbaycan və ingilis dillərində sərbəst ünsiyyət qurma bacarığı və rus dilində bilik səviyyəsi;
- Sosial elmlər, sosiologiya, sosial iş və ya digər müvafiq sosial intizam sahəsində bakalavr dərəcəsi;
- Müvafiq sahə üzrə ən azı 5 illik təcrübə;
- Layihələrdə, o cümlədən gender həssaslığı, həssas qrupların daxil edilməsi, maraqlı tərəflərlə məsləhətləşmələr, vətəndaşların cəlb edilməsi və şikayətlərin aradan qaldırılması məsələlərində sosial davamlılıq üzrə təcrübə;
- Keyfiyyət yönümlü tədqiqat metodologiyaları da daxil olmaqla sosial təhlil hazırlamaq və aparmaq üzrə təcrübə;
- Beynəlxalq Maliyyə İnstitutlarının sosial təminat siyasətində və layihənin sosial təminat tələblərinə uyğunluğunu təmin edilməsi üzrə təcrübə;
- Sosial müdafiə üzrə qanunvericilik bilikləri;
- Yüksək təşkilatçılıq və ünsiyyət bacarığı.

Məsləhətçi, Dünya Bankı Satınalmalar Qaydalarında göstərilən Fərdi Məsləhətçi seçmə metoduna uyğun olaraq seçiləcəkdir.

**Namizədlər tərcümeyi-hallarını aşağıdakı ünvana göndərməlidirlər:**

**E-mail: asep.huseyn@gmail.com**

**Müraciət üçün son tarix: 22 may, 2020**

**Qeyd:**

- Göndərilən elektron məktubun başlığında Layihə və iş elanının adı qeyd edilməlidir
- Ancaq seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:
**LOT-1. P-274 naqilinin satın alınması**
**LOT-2. Fiber optik kabellərin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT -1 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT-2 1500 ( bir min beş yüz) manat (ƏDV daxil)**
iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **11 iyun 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **19 iyun 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **22 iyun 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***

## "Azərmaş" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

"Azərmaş" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarını Bakı şəhəri. Yasamal rayonu, Yeni Yasamal, Xarici dairəvi yol 4 ünvanında yerləşən inzibati binasında 28 iyun 2020-ci il tarixdə saat 10:00-da keçiriləcək "Azərmaş" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti Ümumi Yığıncağına dəvət edir.

Aşağıdakı məsələlər Ümumi Yığıncağın gündəliyinə daxil edilmişdir:

1. Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesablarının təsdiq olunması;
2. Cəmiyyətin maliyyə vəziyyətinin müzakirə edilməsi.

***"Azərmaş" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi***

## B İ L D İ R İ Ş

"AtaSığorta" ASC bildirir ki, 08.04.2020-ci il tarixdən etibarən şirkətin baş ofisi **Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 124** ünvanına köçürülmüşdür.

**Əlaqə telefonu: 012 936**

***Rəhbərlik***

## B İ L D İ R İ Ş

### Lənkəran Dövlət Universiteti bioloji aktivlərin alınması və yetişdirilməsi işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20.05.2020-ci il saat 17:00-dək qəbul olunur .

**Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50.**

***Tender komissiyası***

## Ermənistan ordusu snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Fazil Məmmədov Azərbaycan Güləş Federasiyasının (AGF) sabiq vitse-prezidenti
**MƏHƏMMƏD ƏLİÖMƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun rəhbərliyi və kollektivi iş yoldaşları Gülnaz Ağayevaya atası, Fiziologiya İnstitutunun baş elmi işçisi, AMEA-nın müxbir üzvü, professor
**TELMAN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xaçmaz Rayon Məhkəməsinin kollektivi Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi Səyyad Qafariyə atası
**AĞAƏLİ MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7538
Sifariş 1235
Qiyməti 40 qəpik